| Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) | |
|---|---|
| İl 8, Cild 8, yanvar-mart 2020 | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Nəşr edən təşkilat: | Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) |
| Baş redaktor: | i.e.d., prof. Ə.C.Muradov |
| Baş redaktorun müavini: | i.e.d., prof. Y.H.Həsənli |
| Məsul icraçı: | i.e.n., dos. N.Ö.Hacıyev |
| Jurnalın adı: | Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri |
| Jurnalın növü: | Dövri |
| Dövriliyi və dili: | Rüblük, azərbaycan, ingilis, rus |
| Hüquqi ünvanı: | AZ 1001, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Bakı, Tel: (+994 12) 4927870,Fax: (+994 12) 4925940 |
| Mətbəə: | AZ 1001, Bakı, Azərbaycan Respublikası, İstiqlaliyyət 6, otaq 30, Tel:(+994 12) 4925337; Fax: (+994 12) 4926509 |
| Çap yeri və tarixi: | Bakı, Azərbaycan Respublikası, 02.07.2020 |



| **Redaksiya heyəti** | |
|---|---|
| i.e.d., prof. S.M.Yaqubov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. A.Ş.Şəkərəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.Q.Əlirzayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Q.N.Manafov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Ə.P.Babayev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. R.R.Quliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. M.A.Əhmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. S.M.Səbzəliyev | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. F.P.Rəhmanov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. H.S.Həsənov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Z.F.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. E.Y.Məmmədov | Azərbaycan Dövlət İqtisad Universiteti |
| i.e.d., prof. Y.A.Kəlbiyev | Azərbaycan Dövlət İqtisad Universiteti |



Bu jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunmasını tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır.

This journal is in the list of scientific periodicals of the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan in which the publication of main results of theses is recommended.

Этот журнал находится в списке научных периодических изданий, рекомендованных Высшей аттестационной комиссией при Президенте Азербайджанской Республики для публикации основных результатов диссертаций.

| Mündəricat - Contents | Səh./Pp. |
|---|---|
| Pandemiyaların səbəb olduğu iqtisadi fəsadlar …………………………… ……………………………………........ R.R.Mustafayeva, F.V.Süleymanov | 5-17 |
| К вопросу расчета и оценки «плавающих» таможенных тарифов ……… ………………………………………………………………… А. Д. Алиев | 18-29 |
| Azərbaycanda enerji sektorunun iqtisadi aspektləri və əhəmiyyəti ……… ……………………………………………… Ə.İ.Kərimli, A.M.Ağayev | 30-40 |
| Azərbaycanda aqrar sahənin maliyyələşdirilməsinin mövcud vəziyyəti və inkişaf perspektivləri ..................................T.T.Qurbanova, L.Ç.Qəmbərova | 41-51 |
| Теоретические аспекты влияния валютных курсов на экономический рост ……………………………………………………… А. Э. Рагимова | 52-64 |
| Эволюция и современное состояние институционализма ……………… ……………………………………………………...Тим Росс Расимович | 65-78 |
| Роль свободных экономических зон в развитии ненефтяного сектора ... .................................................................Н. Н. Бахышова, Р. А. Бахышов | 79-91 |
| The effectiveness model of tax administration process….M. Kh. Gazanfarli | 92-102 |
| Sustainable household food security situation of Azerbaijan in relation to some countries: a short review ……………………………. R. T. Huseynov | 103-114 |
| Создание эффективной системы агробизнеса в условиях развития национальной экономики …………………………………X. Э. Намазова | 115-125 |

| Scientific, Refereed, Quarterly | |
|---|---|
| **Azerbaijan State University of Economics (UNEC)** | |
| **Year 8, Volume 8, January-March 2020** | |
| www.unec.edu.az | ISSN 2306-8426 |
| Publisher: | Azerbaijan State University of Economics (UNEC) |
| Editor-in-chief: | prof., Dr. A. J. Muradov |
| Deputy editor-in-chief: | prof., Dr. Y. H. Hasanli |
| Managing Editor: | associate prof., PhD., N. O. Hajiyev |
| Title Juornal: | Scientific reviews of Azerbaijan State University of Economics |
| Type of Journal: | Periodical |
| Time Period and Language: | Quarterly, Azerbaijani, English, Russian |
| Directorial Address: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 424, Tel:(+994 12) 4927870 Fax: (+994) 4 92 59 40 |
| Printing House: | AZ 1001, Baku, Azerbaijan Republic, Istiglaliyyat st. 6, room 30, Tel:(+994 12) 4 92 53 37 Fax: (+994 12) 4 92 65 09 |
| Place and Date of Print: | Baku, Azerbaijan Republic, 02.07.2020 |





| **Editorial Board** | |
|---|---|
| dr., prof. S. M. Yagubov | Azerbaijan State University of Economics |
| dr., prof. A. Sh. Shakaraliyev | Azerbaijan State University of Economics |
| dr., prof. A. G. Alirzayev | Azerbaijan State University of Economics |
| dr., prof. G. N. Manafov | Azerbaijan State University of Economics |
| dr., prof. A. P. Babayev | Azerbaijan State University of Economics |
| dr., prof. R. R. Guliyev | Azerbaijan State University of Economics |
| dr., prof. M. A. Ahmadov | Azerbaijan State University of Economics |
| dr., prof. S. M. Sabzaliyev | Azerbaijan State University of Economics |
| dr., prof. F. P. Rahmanov | Azerbaijan State University of Economics |
| dr., prof. H. S. Hasanov | Azerbaijan State University of Economics |
| dr., prof. Z. F. Mammadov | Azerbaijan State University of Economics |
| dr., prof. E. Y. Mammadov | Azerbaijan State University of Economics |
| dr., prof. Y. A. Kalbiyev | Azerbaijan State University of Economics |

# PANDEMİYALARIN SƏBƏB OLDUĞU İQTİSADİ FƏSADLAR

***R.R.Mustafayeva[1], F.V.Süleymanov[2]***
*[1]i.ü.f.d, dosent, ADAU; [2]Doktorant, ADAU*
*[1]mustafaevamramina@mail.ru; [2]farizsuleymanov649@gmail.com*

*Daxil olmuşdur: 13 aprel 2020*
*Qəbul edilmişdir: 16 may 2020*

**Xülasə**
Məqalədə son yüz ildə dünyada baş verən dörd əsas pandemiya haqqında qısa tarixi məlumatlar yer almışdır. Bununla yanaşı, pandemiyaların Yer kürəsində nə qədər insan tələfatına və iqtisadi itkilərə səbəb olduğu öz əksini tapmışdır. Tədqiqat işinin məqsədi son baş verən pandemiyanın yaranması səbəbi haqqında qısa təsvir verməklə, onun səbəb olacağı iqtisadi itkiləri minimum səviyyəyə endirmək üçün lazım olan çıxış yollarını göstərməkdir. Mövzunun aktuallığı ondan ibarətdir ki, pandemiyaların xarakterik olduğu zamanlarda iqtisadiyyatın yalnız bir sahəsində deyil, bir çox sahələrində istehsal üzrə mövcud vəziyyət əvvəlki illə müqayisədə geriləmələrə məruz qalır. Belə ki, həmin vaxtlarda həyati vacib sahələrdə istehsalın yüksəldilməsinə təkan vermək vacibdir. Tədqiqat işində həmçinin son baş verən pandemiya səbəbindən ABŞ, Çin, Avrozona və ümumən dünya iqtisadiyyatında proqnozlaşdırılan itkilər öz əksini tapmışdır. Tədqiqatın məhdudiyyətləri ölkələrin üzləşə biləcəyi bütün iqtisadi itkilərin əks etdirməsinin mümkün olmamasından ibarətdir. Tədqiqatın nəticə hissəsində postpandemiya dövründə alternativ iqtisadi sahələrin yaranmasının və inkişafının qaçınılmaz olması əsaslandırılmışdır.

***Açar sözlər:*** *iqtisadi tənəzzül, pandemiya, qlobal problemlər, dayanıqlı iqtisadi inkişaf, istehsalın diversifikasiyası.*
***Jel Classification Codes:*** *F61, F62, I15.*

# ECONOMIC CONSEQUENCES OF PANDEMIES

***R.R. Mustafayeva[1], F.V. Suleymanov[2]***
*[1]PhD, Accosiate professor, ASAU; [2]Doktoral, ASAU*
*[1]mustafaevamramina@mail.ru; [2]farizsuleymanov649@gmail.com*

*Received: 13 April 2020*
*Accepted: 16 May 2020*

**Summary**
The article provides a brief history of the four major pandemics that have occurred in the world over the past hundred years, as well as the number of human and economic losses that they caused. The purpose of the study is to give a brief description

of the causes of the recent pandemic and show a number of ways to minimize the economic losses that it causes. The urgency of the problem lies in the fact that, during periods when such pandemics take place, it is necessary not only to maintain the current level of production, but also to maintain and increase production in vital sectors. The study reflected projected losses for the USA, China, the Eurozone and the global economy as a whole. The limitations of the study are that it does not reflect all the economic losses that countries may face. In conclusion, the inevitability of the emergence and future development of alternative sectors of the economy in the post-pandemic phase is substantiated.

***Keywords:*** *economic recession, pandemic, global problems, sustainable economic development, diversification of production.*

## ЭКОНОМИЧЕСКИЕ ПОСЛЕДСТВИЯ ПАНДЕМИЙ

***Р. Р. Мустафаева[1], Ф. В. Сулейманов[2]***
*[1]д.ф.э., доцент, АГАУ; [2]Докторант, АГАУ*
*[1]mustafaevamramina@mail.ru; [2]farizsuleymanov649@gmail.com*

*Получено: 13 апреля 2020 года*
*Принято: 16 мая 2020 года*

**Резюме**

В статье приводится краткая история четырех основных пандемий, произошедших в мире за последние сто лет, а также количество человеческих и экономических потерь, которые они нанесли. Цель исследования - дать краткое описание причин возникновения недавней пандемии и показать ряд способов минимизировать экономические потери, которые она вызывает. Актуальность проблемы заключается в том, что в периоды, когда такие пандемии имеют место, необходимо не только сохранить текущий уровень производства, но также поддержать и увеличить производство в жизненно важных секторах. В исследовании нашли свое отражение прогнозируемые потери для США, Китая, Еврозоны и мировой экономики в целом. Ограничения исследования заключаются в невозможности в одной статье отразить все экономические потери, с которыми могут столкнутся страны. В заключении обоснована неизбежность появления и будущего развития в постпандемической фазе альтернативных секторов экономики.

***Ключевые слова:*** *экономический спад, пандемия, глобальные проблемы, устойчивое экономическое развитие, диверсификация производства.*

Bəşər cəmiyyəti vahid sistem kimi formalaşdığı dövrdən etibarən zaman-zaman iqtisadi canlanmalarla yanaşı, iqtisadi geriləmələrlə, bəzən isə iqtisadi tənəzüllə qarşılaşmışdır. Bu halların bir çoxu iqtisadi, siyasi amillərin təsiri altında əmələ gəlməsinə baxmayaraq, bəzən cəmiyyətin öz iradəsindən asılı olmayan səbəblərdən də baş verir. Bütün iqtisadi proseslərin idarə olunması mexanizmi olduğu kimi, bu iqtisadi tənəzüllərin də yaranma səbəbləri və gələcəkdə onların aradan qaldırılması mexanizmi müəyyən zaman daxilində formalaşır. Ancaq onun cəmiyyətin inkişaf dinamikasına mənfi təsiri, səbəb olduğu fəsadların aradan qaldırılması heç də qısamüddətli dövrdə mümkün olmur. Hətta zamanla bəzi ölkələrin iqtisadiyyatları haqqında səsləndirilən davamlı iqtisadi inkişaf termininin, belə hallarda absurd olduğu sübuta yetirilir. Belə problemlər davamlı sözünün dayanıqlı sözü ilə əvəzlənməsinə səbəb olmuşdur. Qlobal xarakter daşıyan qısamüddətli dövrdə qarşısı alına bilinməyən, iqtisadi, siyasi, bioloji və digər çoxsaylı səbəblərdən qaynaqlanan, genişmiqyaslı problemlər təkbaşına deyil, digər ölkələrlə qarşılıqlı şəkildə həyata keçirilən müvafiq tədbirlərin vasitəsilə həll oluna bilər.

Bəzən cəmiyyətin təbiət üzərində hökmran mövqedə dayanaraq onu istənilən yöndə istismarı, zamanla qlobal miqyas daşıyan, idarə edilməsi mümkünsüz olan problemlərin yaranmasına səbəb olur. Bu cür qlobal xarakter daşıyan hadisələrdən biri də irimiqyaslı sürətlə yayılan pandemiyalardır. Zamanla ortaya çıxan və bütövlükdə Yer kürəsini təhdid edən pandemiyalar, təkcə əhali sayının azalmasına deyil, həmçinin özündən sonra da qalıcı iqtisadi geriləməyə səbəb olur. Bir qrup demoqraflar (Adolphe Quételet (1796–1874), William Farr (1807–1883), Louis-Adolphe Bertillon (1821–1883) belə hadisələrin, əslində Yer kürəsi əhalisinin gələcək tənzimlənmə mexanizmi üçün əhəmiyyətli olduğunu, qalıcılığının vacibliyini vurğulayırlar. Bunu Yer kürəsində mövcud olan iqtisadi ehtiyatların səmərəli istifadəsi baxımından vacibliyi ilə əlaqələndirir. Cəmiyyətin Yer kürəsində uzun müddət var olmasının əsas vacib şərti kimi qeyd edirlər. Alınan alternativ qərarların yetərsiz olduğunu və bu vasitələrdən istifadə etməklə, kütləvi tələfatlara yol verilməsini fərdlərin mənafeləri üçün yararlı olduğunu irəli sürürlər.

Son yüzillikdə Yer kürəsinin qarşılaşdığı, pandemiya adını almış dörd ən böyük tələfata səbəb olmuş xəstəlik müəyyənləşdirilmişdir. Bunlardan birincisi 1918 - 1920-ci illəri əhatə edən Yer kürəsində 500 mln insanın yoluxduğu (o zamankı dünya əhalisinin ¼-hissəsi), 17-50 mln insanın dünyasının dəyişməsinə səbəb olduğu İspan qripidir. Azyaşlı uşaqları və ahıl yaşda olan insanlara təsir etməklə yanaşı, bu xəstəliyin əsas hədəfi məhz sağlam, gənc insanlar olmuşdur. Bəzi mənbələr Birinci Dünya Müharibəsinin sonlanmasını məhz bu qripin bütün dünyanı öz təsiri altına alması ilə əlaqələndirirlər. Epidemiya nəticəsində ən çox insan tələfatının olduğu ölkə Hindistan olmuşdur. Bu hadisə o zamankı ölkə əhalisinin 5%-nin, yəni 17

milyonunun həyatına son qoymuşdur. Qrip Böyük Britaniya və Fransa əhalisinin müvafiq olaraq 250 min və 400 mininin həyatına son qoymuşdur. Uzun araşdırmaların nəticəsi olaraq, virusun yayılma səbəbi müharibə dövründə kütləvi məzarlıqlardan nümunələr götürmək məqsədilə aparılan qazıntı işlərinin olduğu müəyyənləşdirilmişdir.

ABŞ Xəstəliklərə Nəzarət və Qarşısının Alınması Mərkəzinin (U.S. Centers for Disease Control) hesablamalarına görə, ABŞ-da 207 min insanın həyatına son qoymuş İspan qripi pandemiyası, indiki rəqəmlərlə ifadə edilərsə, ölkə iqtisadiyyatında 166 mlrd dollar dəyərində, ÜDM-in 1,5%-i qədər zərər vurmuşdur. ABŞ Sağlamlıq və İnsan Xidmətləri Departamentinin (The U.S. Department of Health and Human Services) pandemiya üzərindəki hesablamaları daha bədbin rəqəmlərlə ifadə olunmuşdur. Belə ki, pandemiyanın ölkə əhalisinin təxminən 1,9 mln nəfərinin həyatına son qoyduğunu, hadisə üzrə iqtisadi itkilərin dəyərinin isə 200 mlrd dollar civarında olduğunu bildirmişdir [5, s.17].

İspan qiripi təkcə çoxlu sayda insan tələfatına səbəb olmamışdır. Dünya Bankının hesablamalarına görə, indiki rəqəmlərlə ifadə edilərsə, dünya iqtisadiyyatı təxminən 3 trln dollar dəyərində itki ilə üzləşmişdir. Dünya üzrə məhsul istehsalının ümumi dəyərində isə 4,8% azalma müşahidə edilmişdir. Dünya Bankı tərəfindən bu qəbildən olan epidemiyaların dünya iqtisadiyyatı üzərində təsiri araşdırılmışdır. DB-nin 2008-ci ildəki hesabatında, 1957-ci ildə ortaya çıxan 1 - 4 mln insan tələfatına səbəb olan Asiya qripinin dünya üzərində iqtisadi təsirinin, ÜDM-in (dünya üzrə) 2%-i dəyərində olduğu müəyyənləşdirilmişdir. Sözügedən hesabatda, həm də 1968-1969-cu illəri əhatə edən Honq-Konq qripinin dünya üzrə ümumi məhsul istehsalının dəyərinin 0,7%-i dəyərində itkiyə səbəb olduğu müəyyənləşdirilmişdir. Qeyd edilənləri aşağıdakı şəkilin köməyi ilə daha aydın görmək mümkündür [6].

**Pandemiyaların səbəb olduğu insan itkiləri (mln nəfərlə) və iqtisadi gerilələmələr (%-lə)**




**Şəkil 1.** Pandemiyalar üzrə itkilər

*Mənbə: Şəkil Dünya Bankının məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.*

Şəkil 1-də son yüz ildə pandemiya xarakterli, zamanla təkrarlanan xəstəliklər qısa təsvir edilmiş, həmçinin müxtəlif illərdə bu pademiyaların səbəb olduğu itkilər proqnozlaşdırılmışdır. Göründüyü kimi, burada ən çox insan tələfatına və iqtisadi itkilərə səbəb olan pandemiya İspan qripidir. Ümumilikdə dünyanın ¼-nə yayılan bu qrip ümumi istehsal olunan məhsul üzrə 4,8% geriləməyə səbəb olmuşdur. Sözügedən pandemiyanın səbəb olduğu itkinin ümumi dəyəri, DB-nin hesablamalarına görə, 3 trln dollardan çox olmuşdur.

Beləliklə, DB bir ildən artıq davam edən böyük iqtisadi durğunluğa səbəb olan qlobal xarakterli problemlərin dünya iqtisadiyyatı üzərində təsirinin əksər hallarda uzun müddətə aradan qaldırılmasının mümkünlüyünü vurğulayır. Qlobal xarakter daşıyan pandemiyaların zamanla təkrarlanması yüzlərlə amilin təsiri altında ola bilər. Amillər sırasında təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsinin pozulmasından başqa, həmçinin bu istiqamətdə görülən təhlükəsizlik tədbirlərinin zəif olması və yaxud da heç olmaması öz təsirini göstərmişdir, xüsusən də belə xəstəliklərin nisbətən zəif inkişaf etmiş ölkələrdə, tibbi epidemioloji sahələrin zəif inkişaf etdiyi və tibbi qaydalara az əməl olunduğu sahələrdən qaynaqlandığı məlum olur. Bu baxımdan bir çox ölkələr başqa ölkə vətəndaşlarının, zərurət olmadığı zamanlarda onların ölkələrinə üz tutmasına qarşı sərt mövqedə dayanır. Yalnız turizim və ölkə iqtisadiyyatına müsbət təsir etmə imkanları olan sahələrdə xarici ölkə vətəndaşlarının ölkəyə daxil olması arzu olunan hesab edilir. Xüsusən ucuz işçi qüvvəsi kimi iqtisadi gəlir vəd edən əmək ehtiyatlarının ölkəyə inteqrasiya olunmasına geniş şərait yaradılır. Bu hal isə, özlüyündə, ölkə iqtisadiyyatı üçün iqtisadi gəlir vəd etməklə yanaşı, bəzi təhdidlərə yol açır. Təhdidlər sırasında yerli əmək ehtiyatlarının itirilməsi, xarici ölkələrə valyuta axını, cinayətkarlığın mövcud vəziyyətinin pisləşməsi, müxtəlif yoluxucu xarakter daşıyan xəstəliklərin ölkədə yayılması yer alır. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bir çox açıqlamalarında bu cür xəstəliklərin yayılma səbəbini beynəlxalq miqrasiyanın sürətlənməsi ilə əlaqələndirir.

BMT-nin 2019-cu il 17 sentyabr tarixində verdiyi məlumata əsasən, hazırda Yer kürəsində öz iradəsindən asılı olan və olmayan səbəblərdən daxili və xarici miqrasiya edənlərin ümumi sayı təxminən 272 mln nəfərdir. Göstərilən rəqəm 2000-ci ilin müvafiq dövrü ilə müqaisə edilərsə, bu rəqəmin 51 mln nəfər çox olduğunu görmək olar. 2019-cu ildə mövcud olan miqrantların ümumi sayı Yer kürəsi əhalisinin 3,5%-i qədərdir. Ən çox miqrantların cəmləşdiyi regionlar sırasında Avropa Birliyi (82 mln), Şimali Amerika (59 mln), Şimali Afrika - Şərqi Asiya (49 mln) qərarlaşmışdır. Ölkələr üzrə nəzər saldıqda, ən çox miqrantların cəmləşdiyi ölkənin ABŞ olduğunu görmək olar. Burada dünya üzrə ümumi miqrantların 19%-i, başqa sözlə desək 51 mln nəfəri cəmlənmişdir. Sonrakı yerlərdə Almaniya (13 mln), Səudiyyə Ərəbistanı (13 mln), Rusiya Federasiyası (12 mln), Birləşmiş Krallıq (10 mln) və İtaliya (6 mln)

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, yanvar- mart, 2020, səh. 5 - 17
Scientific Reviews in UNEC, Year 8, Volume 8, January – Mart, 2020, pp. 5 - 17

yer almışdır. Yaxın Şərqdə son baş verənlərlə əlaqəli olaraq Türkiyə də son dövlər ən çox miqranta ev sahibliyi edən ölkələr sırasına daxil olmuşdur.

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Komissarlığının (United Nations High Commissioner for Refugess) apardığı statistik təhlilin nəticəsi olaraq, 2012-ci ildən bu yana Yer kürəsində olan 272 mln miqrantın 70,8 mln nəfərinin şəxsi iradəsindən asılı olmayan səbəblərdən miqrasiya etdiyi məlum olmuşdur. Əyani şəkildə bu haqda aşağıdakı şəkildə geniş məlumatlar öz əksini tapmışdır [7].

**Məcburi yerdəyişməyə məruz qalan dünya əhalisi üzrə əsas göstəricilər**




**Şəkil 2.** Daxili və xarici məcburi yerdəyişmə

*Mənbə: Şəkil Birləşmiş Millətlər Təşkilatının məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.*

Şəkil 2-də qeyd edildiyi kimi, son vaxtlar dünyada baş verən qloballaşma mühitinin təsiri altında beynəlxalq miqrasiyanın kəmiyyəti ilbəil artır. Bu təsirlər içərisində Yaxın Şərqdəki uzunmüddətli hərbi əməliyyatların həyata keçirilməsi xüsusilə geniş yer alır. Hərbi əməliyyatlar nəticəsində dağıntılara məruz qalan ölkələrdə əhalinin yaşayışı günbəgün çətinləşərək, sosial iqtisadi həyat səviyyəsi daha da ağırlaşır. Nəticədə uzunmüddətli müharibələr əhalinin daxili və xarici miqrasiyasını daha da sürətləndirir. Bu hal ÜST rəsmiləri tərəfindən Avropa ölkələrində cinayətkarlıq vəziyyətinin, terrorizmin və qlobal xarakter daşıyan xəstəliklərin sürətlə artmasına təkan verən amil kimi qiymətləndirilir.

“Qaçqınlar və miqrantlar üçün hərəkət planı və onların AB daxilində sağlamlıqlarına nəzarət” adlı, 2016-cı il 12-15 dekabr tarixlərində Kopenhagen şəhərində keçirilən konfransda, ÜST rəsmilərinin verdiyi hesabatda bəzi xəstəliklərin birlik daxilində yayılmasının əsas səbəbi kimi xarici miqrant axını qeyd edilmişdir. Hər il külli

miqdarda HİV, hepatit, müxtəlif növlü qrip və bəzi hallarda isə MERS (Orta Şərq tənəffüs sindromu) kimi xəstəliklərə yoluxmuş, daşıyıcı insanların birlik sərhədinə daxil olmasına imkan verildiyi bildirilmiş, bu qəbildən olan yoluxucu xəstəlik daşıyıcılarının birlik daxilində yayılmasına qarşı tədbirlərin görülməsi vacibliyini qeyd edilmişdir. Təkcə 2003-cü ildə Çin ilə digər ölkələr arasında intensiv hava nəqliyyatı 32 ölkədə kəskin tənəffüs sindromunun yayılmasına səbəb olmuşdur. Bundan başqa, 2009-cu ildə yeni A qripinin H1N1 tipi (Meksika və yaxud donuz qripi) miqrasiya edən əhali ilə birinci Meksika, sonra isə ABŞ ərazisində yayılmış və daha sonra bu qripin epidemik təzahürləri 136 ölkədə aşkar edilmişdir. ÜST həmçinin Ebola virusu xəstəliyinin də epidemik yayılmasının əsas səbəbini məhz sərhədlərarası miqrasiyada görmüşdür. Qvineya, Liberiya və Syerra Leone arasındakı dövlət sərhədlərinin şərti forma daşıması üç Qərbi Afrika ölkəsi arasında ildırım sürəti ilə infeksiyanın yayılmasına səbəb olmuşdur. Bu isə istər hərbi, istərsə də siyasi amillərin, qarşıdurmaların nəticəsi kimi qiymətləndirilir. Hərbi əməliyyatlar nəticəsində məcburi yerdəyişməyə məruz qalmış 25,9 mln əhalinin (5,05 mln nəfərlik Fələstin əhalisi istisna olmaqla) təxminən 57%-i dünyanın 3 ölkəsinin - Suriya, Əfqanıstan və Cənubi Sudanın payına düşür. Son dövrlər baş verən bu hərbi əməliyyatlar fonunda Suriyadan köçən miqrantların böyük əksəriyyəti Türkiyədə məskunlaşmışdır. Bu isə hazırkı pandemiyaya nəzarət etmə prosesini ölkədə daha da qəlizləşdirir, faktiki yaşayış ünvanları olmayan, tibbi sığorta və bu kimi imkanlardan məhrum olan xarici ölkə miqrantlarının gələcək ölüm-qalım mübarizələrini daha da mürəkkəb hala gətirir.

Pandemiyanın dünya iqtisadiyyatına vurduğu zərərin miqdarının tez bir zamanda kompensasiya olunmayacağı məlumdur. Burada ən çox itkilərlə üzləşəcək ölkələr daha geniş diversifikasiya olunmuş iqtisadiyyata malik olan ölkələr olacaqdır. Bu da həmin ölkələrdə iqtisadiyyatın xarici bazarlarla qarşılıqlı əlaqəsinin genişliyi ilə əlaqələndirilir. Pandemiyanın təsiri əmək bazarından da yan keçməmişdir. Belə ki, Beynəlxalq Əmək Təşkilatının (İLO) hesablamalarına əsasən, bu il əmək bazarı üzərində itkilərin ümumi dəyəri 860 mlrd dollar – 3,440 trln arasında dəyişəcəkdir. Bir qrup ölkələr pandemiyanın beynəlxalq əmək bazarı üzərində təsirini azaltmaq məqsədi ilə artıq, işçilərə ya tam, ya da qismən əməkhaqlarının ödənilməsinə başlamışdır. Bu məqsədlə İngiltərə hökuməti pandemiyanın davam etdiyi müddətdə, COVID-19 pandemiyası səbəbindən işləməyən işçilərin əməkhaqlarının 80%-ni ödəmək üçün dövlət qrantları təklif etmişdir. 20 martda başlayan və icrası ilkin mərhələdə 4 ay üçün planlaşdırılan bu proqram çərçivəsində bir işçiyə ayda maksimum 2500 funt sterlinq qədərində vəsaitlərin ödənilməsi nəzərdə tutulmuşdur. Bu cür dəstəkləyici tədbirlər digər iqtisadi nəhənglər tərəfindən də təqlid edilməkdədir. Belə ki, mart ayının 25-də ABŞ Senatı tərəfindən koronavirusdan xilasetmə paketi (Coronavirus Rescue Package) adı ilə qəbul edilən fondun dəyəri 2 trln dollardır. Bu fondun bir hissəsi

şirkətlərdə işləyən bəzi işçilərin əməkhaqlarını əhatə etsə də, digər hissəsi böhran nəticəsində işlərini itirmiş işçilərin maaşlarını ödəmək üçün istifadə ediləcəkdir. Paketdə həmçinin kiçik müəssisələrə yardım məqsədilə ilə 367 mlrd dollarlıq birdəfəlik yardımlar da yer almışdır. ABŞ-ın Əmək Nazirliyinin verdiyi məlumatda qeyd edilir ki, 28 mart tarixinə qədər işsizlik müavinəti üçün ünvanlanan müraciətlərin sayı 6,648 mln-dur. Bu rəqəm 1982-ci ildən bu yana ən pik müraciət sayı olmaqla, həmin il ilə müqaisədə 10 dəfə çoxdur. İqtisadi böhranın yaya qədər davam etməsinin ABŞ-da daha 14 mln insanın iş yerini itirəcəyinə səbəb olacağı bildirilir.
Fransa hökuməti də dəstəkləyici maliyyə paketinin həcminə görə diqqət mərkəzindədir. 13 mart 2020-ci il tarixində 45 mlrd avronu əhatə edən yardım paketi haqqında danışan Fransa dövlət başçısı Emmanuel Makron öz çıxışını: "Dövlət evində qalmalı olan insanların maddi yükünü daşıyacaq" fikri ilə tamamlayır. Böhran zamanı müvəqqəti olaraq işdən çıxarılan işçilərin, ümumtəhsil məktəblərinin müvəqqəti bağlanması səbəbi ilə evdə uşaqlarına baxan valideynlərin yer aldığı paketin həcminin artırılması istisna edilmir. Dəstəkləyici maliyyə yardımları və subsidiyalaşdırılan əməkhaqları fonunda Danimarka və İsveç hökumətlərinin həyata keçirdiyi siyasət xüsusi ilə fərqlənir. Belə ki, Danimarkada işçilərin əməkhaqlarının 75%-ni (maksimum 2 min kron və ya təqribən ayda 2840 funt sterlinq), firmalar tərəfindən işçilərin işdən çıxarılmaması vədi verildiyi tədqirdə, dövlət tərəfindən həmin firmalara ödəniləcəyi açıqlanmışdır. Bundan başqa, İsveç hökuməti də işçi maaşlarının 90%-ni dövlət tərəfindən subsidiyalaşdırılacağını vəd etmişdir [9].
Külli miqdarda maliyyə itkilərinin üz verdiyi belə bir vaxtda, ölkələr tərəfindən hadisələr üzərində yeni iqtisadi baxış tərzinin formalaşmasına imkan yaranmışdır. Belə ki, bu qəbildən olan, gözlənilməz hadisələrə çevik reaksiya vermə imkanında olan ölkələr gələcəkdə investisya mühiti baxımından daha cəlbedici görünür. Dünya təcrübəsi göstərir ki, qlobal xarakter daşıyan hadisələr üz verdiyi dövrlərdən ən az zərərlə ayrılan ölkələr, idxaldan asılılığı az olan, yerli özünütəminetmə səviyyəsi yüksək olan, bu imkanlardan məharətlə istifadə edən ölkələr olur. Həmin ölkələr, hadisələrə çevik adaptasiya olma xüsusiyyəti ilə, problemə hakim mövqedə dayana bilir, mövcud şəraitdən yararlanaraq, onu öz daxili iqtisadi mühiti üçün əlverişli hala gətirir, buradan böyük iqtisadi itkilərlə üzləşmədən, bəzi hallarda isə iqtisadi artımla çıxmağı bacarır. Ancaq bu heç də qısamüddətli dövrdə bütün ölkələr üçün keçərli deyil. Burada güclü iqtisadiyyata malik ölkələr belə, bu cür hadisələr zamanı, iqtisadi itkilərdən sığortalanmayıb.
Amerikanın məşhur McKenzi konsaltinq şirkəti uzunmüddətli araşdırmalar nəticəsində belə qərara gəlmişdir ki, dünyanı cənginə alan COVID-19 pandemiyası, ümumilikdə dünya iqtisadiyyatında 4,9%-lik geriləməyə səbəb olacaqdır. İqtisadi geriləmənin, müvafiq olaraq Avrozonada 9,5%, Çində 3,3%, ABŞ-da isə 8% olacağı

proqnozlaşdırılır. Həmçinin burada qeyd edilir ki, iqtisadi nəhənglər arasında geriləmə halı ən az Çin iqtisadiyyatında müşahidə ediləcəkdir. Baxmayaraq ki, pandemicyanın ilkin rübdə ən geniş yayıldığı ölkə məhz Çin Xalq Respublikası idi. Dünyanın əvvəlki iqtisadi inkişaf tempinə qayıtması isə, təxmini hesablamalara görə 2022-ci ilin üçüncü rübündə mümkün olacaqdır. Koronavirus pandemiyası XXI əsrin başlanğıcında miqyasına görə, geniş yayılmış xroniki iqtisadi geriləməyə səbəb olan qlobal problem kimi, iqtisadiyyatda zamanla hiss olunacaqdır. Qeyd edilənləri əyani şəkildə aşağıdakı şəkilin köməyi ilə görmək və baş verənləri iqtisadi cəhətdən qiymətləndirmək mümkündür.

**Covid-19 pandemiyasının səbəb olacağı iqtisadi fəsadların proqnozlaşdırılması (%-lə)**




**Şəkil 3**. Covid-19 pandemiyasının səbəb olduğu iqtisadi geriləmələr

*Mənbə: Şəkil Dünya Bankının məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.*

Şəkil 3-ə diqqət edilərsə, göstərilən ölkə və ölkə qrupları üzrə ən çox itkinin Avrozona daxilində yer alan ölkələr üçün gerçəkləşəcəyi məlum olur. Bu hal, karantin tədbirləri nəticəsində həmin qrupa daxil olan ölkələr arasında həyata keçirilən məhdudlaşdırıcı ticarət siyasətinin kəskinləşdirilməsi ilə əlaqələndirilir. Şəkil 3-də qeyd edildiyi kimi, koronavirus pandemiyasının mənfi iqtisadi təsirlərindən ən az zərərlə Çin Xalq Respublikasının çıxacağı proqnozlaşdırılır. Çin Xalq Respublikasında iqtisadi itkilər dünya ilə müqaisədə ümumi göstəricidən aşağı olacağı qeyd edilir. Bu isə Çin iqtisadiyyatının gözlənilməz hadisələrə əvvəlki illərdən hazır edilməsi ilə əlaqələndirilir. Şəkildə qeyd edildiyi kimi, pandemiyadan ikinci ən çox zərər çəkmiş ölkə ABŞ olacaqdır. Bu, ölkənin daha çox sənayə məhsulları ilə ixrac əməliyyatlarında iştirak etməsi ilə əlaqəlidir.

ABŞ-ın nüfuzlu nəşri olan Vol Strit Jurnalında (Wall Street Journal) "Heç bir cəmiyyət iqtisadi sağlamlığı bahasına xalqın sağlamlığını uzun müddət qoruya bilməz" fikri ilə başlayan məqalədə koronovirus ilə mübarizə tədbirlərinin ABŞ iqtisadiyyatını çökdürəcəyi bildirilmişdir. Məqalədə bildirilir ki, hökumətin məhdudlaşdırıcı tədbirləri bir və ya iki həftədən çox davam edərsə, iş itkisi və iflas xərcləri əksər amerikalıların təsəvvür etdiklərindən artıq olacaqdır. İqtisadi fəsadlara gəldikdə isə, bu hal on milyonlarla insanın işini daimi və müvəqqəti itirməsinə səbəb olacaqdır. Bir çox böyük şirkətlər gəlirsiz bir neçə həftə keçinə bilər, lakin bu milyonlarla kiçik və orta müəssisəyə aid deyil [4, s. 24].

Xüsusilə qeyd edilməlidir ki, koronavirus epidemiyası tələb və təklif üzrə gözlənilməz şoklara gətirib çıxarır. Normal iş fəaliyyətinin pozulması istehsalın azalmasına, təklif sahəsində defisitliyin yaranmasına, istehlakçıların və müəssisələrin pul xərcləməmək tendensiyası isə tələbin azalmasına səbəb olur. Pandemiyanın yayılma sürətinin azalmasına səbəb olan təcrid və karantin tədbirləri iqtisadi fəaliyyətə daha da mənfi təsir edir. Burada əsas zərər çəkən sahələr qismində isə xidmət sahələri çıxış edir. Bundan əlavə, təchizat zəncirindən asılı olan şirkətlər daxili və ya xarici bazarda lazım olan komponentləri almaqda problemlərlə üzləşir. Məsələn, Çin Xalq Respublikası elektronika, avtomobil, maşın və avadanlıq sahələrində aralıq məhsulların əsas tədarükçüsüdür. Bu sahələrdə tədarük prosesinin pozulması artıq istehsal zəncirinin sonrakı mərhələlərində fəaliyyət göstərən şirkətlərə də təsir göstərir. Bu cür iqtisadi qırılmalar istehsal xərclərinin artmasına təsir göstərməklə, iqtisadi fəallığın itirilməsinə və məhsuldarlığın isə ciddi ölçüdə azalmasına səbəb olur [1].

Gəlirlərin aşağı düşməsi, xəstəlik qorxusu və artan qeyri-müəyyənlik insanları xərclərini azaltmağa vadar edir və tələb azalır. Şirkətlərin əməkhaqlarını ödəyə bilmədikləri belə bir vaxtda işdən çıxarılma halları qaçılmazdır. Bu təsirlər turizm və otel sahələri kimi bəzi sektorlarda xüsusilə ağır ola bilər. Bundan başqa, istehlakçıların və müəssisələrin iqtisadi vəziyyətinin pisləşməsi firmaları istehsal etdikləri məhsullar üzrə tələbin aşağı ola biləcəyini nəzərə alaraq, xərcləri və investisiyaları azaltmağa sövq edir. Bu da öz növbəsində müəssisələrin bağlanması və iş yerlərinin itirilməsi problemini daha da ağırlaşdırır.

Yuxarıda qeyd edilən iqtisadi fəsadlar daha böyük iqtisadi gücə malik olan ölkələrdə ilkin dövrlərdə irimiqyaslı itkilərə səbəb olur. Bu səbəbdən, həmin ölkələrdə yerli sahibkarların dəstəklənməsi əsas hədəf kimi götürülür. Buna misal olaraq Çin Xalq Respublikasını göstərmək olar. Çin iqtisadiyyatı dünyanın ikinci ən böyük iqtisadiyyatına malik olmaqla, itkilərin bir çoxunu, proteksionist mövqedə dayanaraq öz üzərinə götürmüşdür. Digər ölkələr də pandemiyanın iqtisadi fəsadlarını qarşılamaq və aradan qaldırmaq məqsədilə iqtisadi proqramlar hazırlayır. Himayəçilik məqsədi ilə hazırlanan proqramlar iqtisadiyyatın zərər çəkmiş bütün sahələrini əhatə etməklə,

pandemiya ilə bağlı işsiz qalmış iqtisadi fəal əhalinin dəstəklənməsini nəzərdə tutur. Pandemiyanın mənfi iqtisadi təsirlərinin azaldılması istiqamətində ölkəmizdə qəbul edilən iqtisadi qərarlar xüsusilə tədqirəlayiq qiymətləndirilə bilər.

Qlobal pandemiyadan çıxış proqramı çərçivəsində Azərbaycan hökuməti ÜDM-in 3,1% miqdarında (2,5 mlrd manat) antiböhran proqramı hazırlamışdır. Bu göstərici Gürcüstanla müqayisədə 1,1% daha çoxdur (1 mlrd lari). Yardım paketinin dəyəri qonşu Rusiyada ÜDM-in 0,3%-i (300 mlrd rubl) həcmində müəyyənləşdirilmişdir. Türkiyədə bu rəqəm ÜDM-in 2%-i (100 mlrd TL), Qırğızıstanda ÜDM-in 1%-i (9,4 mln dollar), Özbəkistanda ÜDM-in 1,5%-i (1 mlrd dollar), İspaniyada isə ÜDM-in 0,7%-i, başqa sözlə desək 8,9 mlrd avro təşkil etmişdir. Statistik məlumatlara nəzər edilərkən məlum olur ki, öz iqtisadi potensialı nəzərə alınmaqla, digər ölkələrlə müqayisədə Azərbaycan hökumətinin ayırdığı vəsaitin ümumi həcmi kifayət qədər yüksəkdir.

Pandemiyanın mənfi təsirlərinin ölkə iqtisadiyyatına verə biləcək fəsadlarının minimuma endirilməsi məqsədilə görülən tədbirlər içərisində ilk növbədə 304 min insanın muzdla çalışdığı 44 min sahibkara dəstək göstəriləcəyi ön plana çəkilmişdir. Ölkəmizdə 1,6 mln muzdla çalışan işçinin 915 mininin dövlət və neft sektorunda çalışdığı bizə məlumdur. Bu səbəbdən həmin qrupa daxil olan insanların əməkhaqları saxlanılmaqla müddətli məzuniyyətə göndərilməsi, onlar üçün əlavə dəstəkləyici vəsaitlərin ödənilməsi ehtiyacını aradan qaldırır. Belə olan halda, işlərini itirməyən, davamlı aylıq məvaciblərini alan vətəndaşların dövlət tərəfindən əlavə vəsaitlər hesabına müavinətlərlə təmin olunmasına ehtiyac qalmır. Geridə qalan 700 minə yaxın insanın isə 304 mini istisna olmaqla, orta aylıq əməkhaqqının (712 azn) məbləği nəzərə alınmaqla, dövlət tərəfindən ayrılan maliyyə vəsaitləri hesabına dəstəklənəcəkdir. Dəstəkləyici tədbirlər təkcə birbaşa yardımlar hesabına deyil, həm də dolayı yolla edilməsi nəzərdə tutulur. Belə ki, orta və kiçik sahibkarlara ediləcək vergi güzəştləri onların istehsalın miqyasını cari zamanda genişləndirməyə imkan verəcək və istehsal etdikləri məhsul vahidləri üzrə qiymət artımının qarşısını alacaqdır. Dövlət həmçinin vətəndaşlara mövcud kreditlər üzrə möhlət hüququnun verilməsi məsələsini də diqqət mərkəzində saxlayır. Hazırda ölkə üzrə 15,5 mlrd kredit portfelinin əsas tərəfləri olan ev təsərrüfatlarına (7 mlrd), özəl sektora (6,1 mlrd) müəyyən müddətə kredit ödənişlərinin ödənilməsi üçün müvafiq güzəştlər tətbiq edilir. Bundan başqa, gələcəkdəki dövrdə pandemiyadan daha çox əziyyət çəkmiş nəqliyyat sektorunun da (hava nəqliyyatı, dəmiryol, metropoliten, BNA) maliyyə cəhətdən dəstəklənməsi nəzərdə tutulmuşdur.

Məlumdur ki, qlobal xarakter daşıyan problemlər hadisələrə fərqli tərəfdən baxmağa imkan verir, daha yaradıcı qərarların alınmasına zərurət yaradır. Belə ki, dünya ənənəvi düşüncə tərzindən ayrılaraq hadisələr üzərində daha yaradıcı düşünməyə imkan

tapır. Cəmiyyətin hər bir inkişaf mərhələsi əksər hallarda çatışmazlıqların, problemlərin kəskin xarakter aldığı zamanlarda üzə çıxdığı məlumdur. Cəmiyyət o dövrdə fikir yaradıcılığına gedir ki, orda yol bitir və problemin həlli üçün başqa bir yolun tapılmasına, tədqiq edilməsinə ehtiyac yaranır, bu da nəticə etibarı ilə alternativ düşüncə tərzinin inkşafına zəmin yaradır. Məqalədə yer alan bütün qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, pandemiyanın davam etdiyi və sonrakı dövrlərdə yeni iqtisadi fəaliyyət sahələrinin yaranmasına ehtiyac duyulacaq və bu proses əvvəlki dövrlərlə müqaisədə daha da sürətlənəcəkdir.

## Nəticə

Qlobal xarakter daşıyan problemlərin, xəstəliklərin yayıldığı müddətdə yerli hökumətin təlaşa qapılıb verəcəyi açıqlamalar yerli istehlakçılar üzərində bəzi hallarda arzuolunmaz nəticələrə səbəb ola bilər. Bu baxımdan, verilmiş, qəbul edilmiş qərarlar haqqında insanlara məlumat verilərkən soyuqqanlılığı itirməmək vacib məsələ hesab edilir. Əks tədqirdə yerli hökumət yüksək alıcılıq qabiliyyəti ilə üzləşə bilər, bu isə idxaldan zəruri ərzaq məhsulları üzrə asılı ölkələrdə arzuolunmaz iqtisadi nəticələrə gətirib çıxara bilər. Bu, eyni zamanda iqtisadi rəqib hesab edilən ölkələr, böyük şirkətlər tərəfindən həmin ölkənin mövcud iqtisadi imkanlarının mənimsənilməsi üçün əlverişli şəraitin yaranmasına səbəb olar. Belə halların kəskinləşməsi, zəif düşmüş ölkənin nüfuzunun itirilməsi fonunda, digər qrup ölkələr tərəfindən onun iqtisadi cəhətdən istilasına gətirib çıxara bilər. Kütləvi qarışıqlığın qarşısının alınması məqsədilə yaxşı olar ki, həmin dövrdə yerli hökumət istehsalçılar və vətəndaşlar üzərində öz himayədarlıq siyasətini artırsın.

Pandemiyaların kəskin xarakter aldığı vaxtlarda, yerli hökumət istehsalçıların mənafeyini müdafiə edərək, onlara bu dövrdə fəaliyyət imkanlarının genişləndirilməsi, istehsalın fasiləsizliyinin qorunması məqsədilə zəruri olan iqtisadi mühitin yaradılmasını təmin etməlidir. Vergi güzəştlərinin həcmini artırmaqla, yüksək tələb fonunda məhsullar üzrə əsassız qiymət artımının qarşısını almalıdır. İşsizliyin geniş vüsət aldığı bu dövrdə aztəminatlı insanların dövlət tərəfindən himayə olunmasını öz üzərinə götürməlidir. Ancaq bir çox əmtəə bazarı iştirakçılarının fəaliyyətinin dayandırması ilə bərabər, maliyyə yardımlarının artımı gələcəkdə dövriyyədə olan pul kütləsinin yüksəlməsinə və məhsullar üzrə qiymət artımına səbəb olacaqdır. Bu isə heç də arzuolunan hal hesab edilmir. Bu səbəbdən yaxşı olar ki, əhali qrupları müxtəlif dəstəkləyici maliyyə vəsaitləri ilə təmin edilərkən, eyni vaxtda əmtəə bazarında da qarşılıqlı şəkildə bolluq yaradılsın.

Bu dövrdə yerli hökumət əsasən zəruri olan, gündəlik istehlakda böyük paya sahib məhsulların istehsalını artırmalıdır. Belə ki, həmin dövrdə əhalinin yığıma meyilli

olması mağazalarda zamanla dayanıqlı məhsulların asan bir şəkildə tapılmasını imkansız edəcəkdir. Yaxşı olar ki, həmin dövrlərdə bir qrup eyni və ya oxşar məhsulların istehsalı genişləndirilsin. Hətta cari dövrdə istehsal imkanları müəyyən sahə üzrə ixtisaslaşan istehsalçılar hazırkı şəraitə uyğunlaşaraq, digər vacib sahə üzrə uzun illər istehsal təcrübəsinə malik olan şirkətlərin köməyi ilə yeni sahəyə dəstək olaraq, istehsal prosesinə qoşulsunlar. Bu dövrdən səmərəli istifadə edən bir qrup ölkələr nəinki daxili istehsal hesabına öz ölkələrinin tələbatını ödəyə bilər, eyni zamanda xarici bazara da bir qrup məhsullar üzrə çoxmilyardlı satış prosesini həyata keçirə bilər (hazırda istifadəsinə böyük ehtiyac duyulan bir çox tibbi ləvazimat və avadanlıqların istehsalı da daxil olmaqla). Bu qəbildən olan məhsulların istehsalını həyata keçirməklə, istehsalçı cari zamanda öz ölkəsinin digər sahələr üzrə itirdiyi imkanları, bu sahədə əldə etmiş olduğu maliyyə vəsaitləri hesabına kompensasiya edə bilər. Belə məhsullar siyahısına heç də yüksək elmi araşdırmalar əsasında istehsal edilməsinə ehtiyac olmayan sadə tibbi ləvazimatların, cihazların istehsalı istehsalçılara yüksək iqtisadi mənfəət vəd edir. Ancaq bu da məlumdur ki, qlobal xarakter alan problemlərə qarşı təkbaşına mübarizə aparmaq mümkün deyil. Sərhədləri bağlayaraq qapalı iqtisadi inkişafa nail olmağa, problemlə təkbaşına mübarizə aparmağa çalışan ölkələr əksər vaxtlarda hadisələrin onun iqtisadi gücünün sərhədləri xaricində olduğu və nəticələrin daha arzuolunmaz məcraya yönəldiyinin şahidi olur.

Sonda qeyd etmək lazımdır ki, nəzərə alsaq ki, dünyanın bir çox ölkələrində, həmçinin Azərbaycanda pandemiya hələ də davam edir, onun iqtisadi fəsadları da getdikcə daha kəskin xarakter ala bilər. Bu fəsadların qarşısının alınmasında dövlətin qəbul etdiyi qərarlar, həyata keçirdiyi tədbirlər kompleksi, seçdiyi dövlət siyasəti (mikro və makro səviyyədə) həlledici rol oynayır.

**Ədəbiyyat**


1. Ограничение негативных экономических последствий коронавируса за счет крупных адресных мер политики. Гита Гопинат. 13 март 2020;
2. Lafay G., Herzog C. Commerce international: la fin des avantages acquis. CEPII, Economica, 1989;
3. Editorial B.K. Rethinking the Coronavirus Shutdown: Wall Street Journal (WSJ), March 19, 2020;
4. Thomas A. G. Economic Effects of the 1918 Influenza Pandemic: Washington, 2007;
5. https://www.weforum.org/agenda/;
6. https://www.reuters.com/article/us-reutersmagazine-davos-flu-economy/flu-conomics-the-next-pandemic-could-trigger-global-recession-idUSBRE90K0F820130121;
7. http://www.euro.who.int/__data/assets/pdf_file/0004/314725/66wd08e_MigrantHealthStrategyActionPlan_160424.pdf?ua=1;
8. https://www.un.org/development/desa/en/news/population/international-migrant-stock-2019.html.

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, yanvar- mart, 2020, səh. 18 - 29
Scientific Reviews in UNEC, Year 8, Volume 8, January – Mart, 2020, pp. 18 - 29

# К ВОПРОСУ РАСЧЕТА И ОЦЕНКИ «ПЛАВАЮЩИХ» ТАМОЖЕННЫХ ТАРИФОВ

***А. Д. Алиев*[1]**
[1]*кандидат технических наук*

*Получено:04 февраля 2020 года*
*Принято: 24 февраля 2020 года*

**Резюме**

Основная задача данного исследования является разработка обоснованной процедуры расчета величины таможенного тарифа в управлении внешнеэкономических связей страны и осуществление оценки этого выбора тарифа с учетом удовлетворения потребностей страны.

Регулирование внешнеэкономических связей страны, помимо административно-политических действий, включает широкий спектр мероприятий, связанных с содержательной стороной таможенного контроля. Изменение таможенных тарифов является одним из основных инструментов регулирования товарооборота страны, и возможность расчета объективно обусленного таможенного тарифа представляет научный и практический интерес. В настоящее время, как правило, из сборника таможенных тарифов, утвержденного исполнительным органом страны, выбирается тариф, соответветствуюший десятизначной товарной позиции, указанной в грузовой таможенной декларации. В данной процедуре этапы оценки выбранных тарифов не просматриваются.

В статье предлагается алгоритм выбора и оценки таможенных тарифов с учетом степени удовлетворения потребностей страны и таможенных тарифов, исполнительным органом страны. Данный алгоритм возможно применить как на предварительном этапе формирования тарифов, так и при таможенном оформлении товаров. Данный подход направлен на совершенствование существующей системы.

В результе исследования выбран критерий эффективности; определены источники для классификации товаров по уровню облажения таможенными пошлинами; установлен перечень исполнительных органов, обеспечивающих информацией имитационные расчеты; выполнена формализация некоторых этапов процесса расчета таможенных пошлин; сформулированы логистические правила для лица, принимающего решение.

***Ключевые слова:*** *внешнеэкономические связи, регулирование, таможенные тарифы, уровни облажения товаров пошлинами и налогами, грузовая таможенная декларация.*

# "ÜZƏN" GÖMRÜK TARİFLƏRİN HESABLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ BARƏDƏ

***A.D.Əliyev***[1]

[1]*t.e.n.*

*Daxil olmuşdur: 04 fevral 2020;*
*Qəbul edilmişdir: 24 fevral 2020*

**Xülasə**

Bu tədqiqatın əsas məqsədi ölkənin xarici iqtisadi əlaqələrinin idarə edilməsində gömrük tarifinin dəyərinin hesablanması və bu tarif seçiminin ölkənin ehtiyaclarını nəzərə alaraq qiymətləndirilməsinin əsaslandırılmış qaydasını hazırlamaqdır.

Ölkənin xarici iqtisadi əlaqələrinin tənzimlənməsi, inzibati və siyasi hərəkətlərlə yanaşı, gömrük nəzarətinin əsaslı tərəfi ilə əlaqəli geniş fəaliyyət sahələrini də əhatə edir. Gömrük tariflərinin dəyişdirilməsi ölkə ticarətinin tənzimlənməsində əsas vasitələrdən biridir və obyektiv tətbiq olunan gömrük tarifinin hesablanmasının mümkünlüyü elmi və praktik maraq doğurur. Hal-hazırda bir qayda olaraq ölkənin icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilmiş gömrük tariflərinin toplanmasından, yük gömrük bəyannaməsində göstərilən onrəqəmli mal mövqeyinə uyğun bir tarif seçilir. Bu prosedurda seçilmiş tariflərin qiymətləndirmə mərhələləri görünmür.

Məqalədə ölkənin tələbat səviyyəsi və ölkənin icra hakimiyyəti orqanı tərəfindən təsdiqlənən gömrük tarifləri nəzərə alınmaqla gömrük tariflərinin seçilməsi və qiymətləndirilməsi alqoritmi təklif olunur. Bu alqoritm həm tarif formalaşmasının ilkin mərhələsində, həm də malların gömrük rəsmiləşdirilməsində tətbiq oluna bilər. Bu yanaşma mövcud sistemin təkmilləşdirilməsinə yönəlib.

İşin əsas nəticələri: səmərəlilik meyarı seçilmiş; gömrük rüsumları səviyyəsinə görə malların təsnifatı üçün məlumat mənbələri müəyyən edilmiş; simulyasiya hesablamaları üçün məlumat verən icra orqanlarının dəsti müəyyən edilmiş; gömrük rüsumlarının hesablanması prosesinin bəzi mərhələlərinin modelləri verilmiş; qərar verən üçün məntiqi qaydalar tərtib edilmişdir.

***Açar sözlər:*** *xarici iqtisadi əlaqələr, tənzimləmə, gömrük tarifləri, mallardan rüsum və vergilərin alınma səviyyələri, yük gömrük bəyannaməsi.*

# ON THE ISSUE OF CALCULATION AND EVALUATION OF “FLOATING“ TARIFFS

***A. D. Aliyev***[1]

[1]*PhD*

*Received: 04 February 2020;*
*Accepted: 24 February 2020*

**Abstract**
The main objective of this study is to develop a justified procedure for calculating the value of the customs tariff in the department of foreign economic relations of the country and assessing this choice of tariff taking into account the needs of the country. The regulation of foreign economic relations of the country, in addition to administrative and political actions, includes a wide range of activities related to the substantive side of customs control. Changing customs tariffs is one of the main tools for regulating the country's trade and the possibility of calculating an objectively reasoned customs tariff is of scientific and practical interest.
The article proposes an algorithm for the selection and assessment of customs tariffs taking into account the degree of satisfaction of the country's needs and customs tariffs approved by the executive body of the country. This algorithm can be applied both at the preliminary stage of tariff formation and in the customs clearance of goods. This approach is aimed at improving the existing system.
6. Neft və Qaz Jurnalı, "Ümumdünya Neftayırma zavodları - 1 yanvar 2018-ci il tarixinə olan imkanlar" (2017), Mövcuddur: https://www.ogj.com/ogj-survey-downloads/worldwide-refining/document/17299951/worldwide-us-refinery-surveycapacities-as-of-jan-1-2019, Keçid edilmişdir: 29.10.2019BP;
7. "Azərbaycan hökuməti və tərəfdaşlar Azəri-Çıraq-Dərinsulu Günəşli ilə Dəyişiklik və Yenidənqurma Sazişi imzaladılar. Mövcuddur: https://www.bp.com/en/global/corporate/news-and-insights.html, 28.10.2019;
8. BP, "2017-ci il nəticələri", Mövcuddur: https://www.bp.com/en_az/caspian/press/businessupdates/2017-year-end-results.html, Keçid edilmişdir: 29.10.2019;
9. BP, "2016-cı il nəticələri", Mövcuddur: https://www.bp.com/en_az/caspian/press/businessupdates/2016-year-end-results1.html, Keçid edilmişdir: 29.10.2019;
10. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Enerji: xam neftin mal tarazlığı/Energy: Commodity balance of crude oil", Mövcuddur: https://www.stat.gov.az/source/balance_fuel/?lang=en, Keçid edilmişdir: 29.10.2019;
11. BP, "Şah Dəniz", Mövcuddur: https://www.bp.com/en_az/caspian/operationsprojects/Shahdeniz.html, Keçid edilmişdir: 30.10.2019;
12. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Enerji: Enerji məhsullarının ixracı", Mövcuddur: https://www.stat.gov.az/source/balance_fuel/?lang=en. Keçid edilmişdir: 30.10.2019;
13. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, "Energetika: Elektrik enerjisi istehlakı", Mövcuddur: https://www.azstat.org/MESearch/search?departament=3 HYPERLINK "https://www.azstat.org/MESearch/search?departament=3&lang=en"& HYPERLINK "https://www.azstat.org/MESearch/search?departament=3&lang=en"lang=en, Keçid edilmişdir: 30.10.2019;
14. Beynəlxalq Enerji Agentliyi (IEA), "Dünya Enerji Balansları 2017 nəşr"., Mövcuddur: https://www.oecd-ilibrary.org/energy/world-energy-balances-2017_world_energy_bal-2017-en, Keçid edilmişdir: 30.10.2019;
15. Cəmil Məlikov, (2015): "Bərpa olunan enerji və enerji səmərəliliyi siyasəti: Azərbaycanın təcrübəsi və strateji görünüşü";
16. Xəzər İnformasiya Mərkəzi, (2013): "Azərbaycan: Alternativ və Bərpa Olunan Enerji - Biznes perspektivi", Keçid edilmişdir: 29.10.2019;
17. "Azərbaycanda bərpa olunan enerjiyə investisiya: Üç alternativ investisiya ssenarisinin qiymətləndirilməsi"/ "Investing in Renewable Energy in Azerbaijan: A Valuation of Three Alternative Investment Scenarios", Mövcuddur: http://cesd.az/new/wp-content/uploads/2019/05/CESD_Paper_Renewable-Energy.pdf, Keçid edilmişdir: 29.10.2019;
18. Kerckhoff T, (2019): "Investing in Renewable Energy in Azerbaijan: A Valuation of Three Alternative Investment Scenarios", CESD, Mövcuddur: http://cesd.az/new/wp-content/uploads/2019/05/CESD_Paper_Renewable-Energy.pdf Keçid edilmişdir: 30.10.2019;
19. Hüseynova H., (2014): "Azərbaycan üçün alternativ və bərpa olunan enerji perspektivləri 2014", Keçid edilmişdir: 29.10.2019;

20. Azernews (2016): "Azərbaycan su elektrik enerjisi istehsalının həcmini artırır" Mövcuddur : http://www.azernews.az/business/95486.html, Keçid edilmişdir : 30.10.2019;
21. AzərTag Xəbər Agentliyi, (2014): "Suraxanı və Pirallahıda sürətli günəş elektrik stansiyalarının inşası davam edir. Keçid edilmişdir 31.10.2019;
22. Azərbaycanda bərpa olunan enerji fəaliyyətlərinin həyata keçirilməsinə dəstək, (2019), Mövcuddur: https://www.ebrd.com/work-with-us/projects/tcpsd/support-for-the-implementation-of-renewable-energy-auctions-in-azerbaijan.html, Keçid edilmişdir: 01.11.2019;
23. "Equinor Abşeron Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafına kömək edəcək"/"Equinor Absheron to help develop renewables in Azerbaijan", Mövcuddur: https://www.azernews.az/oil_and_gas/146269.html , Keçid edilmişdir: 01.11.2019.

# AZƏRBAYCANDA AQRAR SAHƏNİN MALİYYƏLƏŞDİRİLMƏSİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***T.T.Qurbanova[1], L.Ç.Qəmbərova[2]***

*[1]Dosent, Maliyyə və maliyyə institutları kafedrası, UNEC*

*[2]Magistr, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzi (BMDM), UNEC*

*[1]sema_tofiq1978@mail.ru; [2]chingizovna96@mail.ru*

*Daxil olmuşdur: 14 may 2020;*
*Qəbul edilmişdir: 16 iyun 2020*

**Xülasə**

Respublikamız əsasən aqrar-sənaye ölkəsi hesab edilir ki, hal-hazırda iqtisadi-texnoloji dəyişiklər dövrünü yaşamaqdadır. Bu baxımdan milli iqtisadiyyatın mühüm sahələrindən biri kimi kənd təsərrüfatının istehsal münasibətlərinin inkişaf etdirilməsi xüsusilə diqqət mərkəzində olan dövlət əhəmiyyətli məsələlərindən sayılır. Mövzunun aktuallığı bu sahənin maliyyələşdirilməsi çərçivəsində iqtisadi münasibətlərin araşdırılmasından ibarətdir.

Tədqiqatın məqsədi kənd təsərrüfatına yönəlmiş kreditləşmənin bu sektorda məhsuldarlığın davamlı artmasına təsir edən amillərdən biri kimi öyrənilməsidir. Elmi araşdırmanın ilkin olaraq nəzəri hissəsində kənd təsərrüfatı istehsalının xüsusiyyətləri verilmişdir. Məqalədə ölkənin ÜDM-də kənd təsərrüfatının illik payının müqayisəsi aparılmış, başqa sözlə kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlirlərin həcminin ÜDM-də payı üzrə 2005-2018-ci illər ərzində şərh edilmiş, həmçinin kənd təsərrüfatına verilən kreditlərin həcmi ilə bu sahənin məhsuldarlığı arasındakı əlaqə qiymətləndirilmişdir. Təhlil üsulu kimi korrelyasiya analizi metodundan istifadə edilmişdir. Təhlil zamanı kənd təsərrüfatının istehsal dəyəri ilə bu sahəyə ayrılmış kreditlər arasındakı münasibəti göstərilmişdir. Məqalənin informasiya bazasını Dövlət Statistika Komitəsinin məlumatları, bu sahə üzrə yerli və xarici alimlərin apardıqları elmi tədqiqatlar təşkil edir.

Məqalənin elmi yeniliyi kimi müəyyən olunmuşdur ki, son 2 ildə xarici mənbələrdən maliyyələşmə həcmi, yəni kreditlərin verilməsi ilə ÜDM və kənd təsərrüfatı məhsullarının həcmi arasında sərt əlaqə yoxdur. Başqa sözlə kənd təsərrüfatı məhsullarının istehsalı nəzərə çarpacaq qədər kreditləşmə vəsaitlərindən asılı deyildir. Araşdırmanın sonunda iqtisadiyyatın kənd təsərrüfatı sektorunda kredit sisteminin əsas inkişaf istiqamətləri sadalanmışdır.

***Açar sözlər:*** *kənd təsərrüfatı, kredit, aqrar sahə, maliyyələşdirmə, zəmanət.*

UNEC Elmi Xəbərləri, İl 8, Cild 8, yanvar- mart, 2020, səh. 41 - 51
Scientific Reviews in UNEC, Year 8, Volume 8, January – Mart, 2020, pp. 41 - 51

# ТЕКУЩЕЕ СОСТОЯНИЕ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ АГРАРНОЙ ОТРАСЛИ В АЗЕРБАЙДЖАНЕ

***Т. Т. Гурбанова[1], Л. Ч. Гамбарова[2]***
*[1]Доцент, кафедра «Финансы и финансовые институты», UNEC*
*[2]Магистр, Международный Центр Магистратуры и Докторантуры, UNEC*
*[1]sema_tofiq1978@mail.ru; [2]chingizovna96@mail.ru*

*Получено: 14 мая 2020 года*
*Принято: 16 июня 2020 года*

## Резюме

На сегодняшний день Азербайджан считается преимущественно аграрной страной, переживая экономико-технологические сдвиги. В этом плане, развитие отношений сельскохозяйственного производства как одного из ключевых отраслей национальной экономики приобретает государственную значимость, находясь под пристальным вниманием. Актуальность данной статьи состоит в исследовании экономических отношений в рамках финансирования упомянутой отрасли.

Целью исследования является изучение кредитования как одного из факторов влияния на продолжительный рост производительности в данной отрасли. В теоретической части исследования представлены особенности сельскохозяйственного производства. В работе приведены темпы роста годовой доли сельского хозяйства в ВВП, иными словами, интерпретированы показатели удельного веса размера прибыли приобретенного от сбыта сельскохозяйственной продукции в ВВП с 2005 по 2018 гг., а также взаимосвязь между объемами кредитов, выданных на сельское хозяйство и урожайностью названной отрасли. В качестве анализа использован метод корреляционного анализа. В ходе анализа показано соотношение производственной стоимости сельскохозяйственной продукции к ссудам, выданным на эту сферу. Информационную базу исследования составляют сведения Государственного Комитета Статистики Азербайджанской Республики, а также исследования, проведенные местными и зарубежными учеными в данной области.

Научная новизна работы заключается в выявлении того факта, что жесткая фиксированная связь между финансированием из внешних источников и количеством сельскохозяйственной продукции и ВВП за последние 2 года не существует. Другими словами, наблюдается незначительная зависимость производства сельскохозяйственной продукции от средств кредитования. В итоге исследования перечислены основные направления кредитной системы в сельскохозяйственном секторе.

***Ключевые слова:*** *сельское хозяйство, кредитование, аграрная отрасль, финансирование, гарантия.*

# CURRENT CONDITION AND DEVELOPMENT PROSPECTS OF THE AGRICULTURAL SECTOR IN AZERBAIJAN

***T. T. Gurbanova[1], L. G. Gambarova[2]***
*[1]Accosiate professor, Department of Finance and financial institutions, UNEC;*
*[2]Master, International Magistrate and Doctorate Center, UNEC;*
*[1]sema_tofiq1978@mail.ru; [2]chingizovna96@mail.ru*

*Received: 14 May 2020*
*Accepted: 16 June 2020*

## Abstract

Today, Azerbaijan is considered primarily an agrarian country, experiencing economic and technological changes. In this regard, the development of relations of agricultural production as one of the key sectors of the national economy is gaining state significance, being under close attention.

The relevance of this article is to study economic relations in the framework of financing the mentioned industry. The aim of the study is to study lending as one of the factors affecting the continued growth of productivity in this industry. First of all, the theoretical part of the study presents the features of agricultural production. The paper presents the growth rate of the annual share of agriculture in the runway, in other words, interprets the specific gravity of the profit acquired from the sale of agricultural products in GDP throughout 2005-2018, as well as the relationship between the volume of loans granted to agriculture and the productivity of the named industry. As an analysis, the method of correlation analysis was used. The analysis shows the ratio of the production value of agricultural products to loans issued in this area. The information base of the article is made up of information from the State Committee of Statistics of the Republic of Azerbaijan, as well as studies conducted by local and foreign scientists in this field.

The scientific novelty of the work is to identify the fact that there is no rigid fixed relationship between financing from external sources and the amount of agricultural products and GDP over the past 2 years. In other words, there is a slight dependence of agricultural production on credit facilities. As a result of the study, the main directions of the credit system in the agricultural sector are listed.

## Giriş

Kənd təsərrüfatı sahəsi istənilən dövlətin maddi istehsalının vacib hissəsidir. Aqrar sahə ölkənin ərzaq təhlükəsizliyini təşkil edən bir sənayedir. Bu sahənin əsas məqsədi

əhalini təhlükəsiz kənd təsərrüfatı məhsulları ilə təmin etmək və nəticədə digər ölkələrə ərzaq ixraçını təşkil etməkdir. Aqrar sahənin xidmətinə kənd təsərrüfatı məhsullarının xammal və emal formasında istehsalı, həmçinin ərzaq məhsulları ilə əlaqəli xidmətlərin göstərilməsi formasında təsərrüfat fəaliyyətlərinin məcmusu daxildir.
Aqrar bazar münasibətləri şəraitində istehsal, emal və xidmət sahələrində kooperasiya əlaqələri, istehsalın idarə edilməsi, maliyyə münasibətləri və məsuliyyət ehtiyatlardan səmərəli istifadə edilməsinə yönəlmişdir [1, s. 86]. Azərbaycanda aqrar münasibətlər öz inkişafında mürəkkəb yol keçmişdir. Hal-hazırda bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının təkmilləşdirilməsi istiqamətində müəyyən canlanma müşahidə olunur. Lakin sektorun tam inkişafı üçün dövlət dəstəyi lazımdır. Buna səbəb olaraq kənd təsərrüfatı istehsalının aşağıdakı xüsusiyyətlərini göstərmək olar:
1) kənd təsərrüfatı əsasən yalnız aqrar sahə üçün səciyyəvi olan təbii-iqlim və təbii-bioloji amillərdən asılıdır ki, bu da digər sahələrə nisbətən riskin yüksək səviyyəsini şərtləndirir [2, s. 21]. Riskli sahələrdə fermerlərin maddi və mənəvi zərərlə fəaliyyətlərinə dövlət müdaxiləsi labüddür;
2) kənd təsərrüfatı bir çox standart məhsul istehsalçılarının təqdim etdiyi sahədir ki, buna görə dövlət fermerlərə dövlət dəstək proqramları olmadıqda, kənd təsərrüfatı mükəmməl rəqabət gücünü nisbətən itirir;
3) kənd təsərrüfatı aqrar-sənaye sistemi və ya ərzaq zəncirində elə bir aralıq halqadır ki, bunun nəticəsində monopoliyanın təzahürü qismində aqrar sahədə milli, təbii, sahə və lokal inhisarlaşmasına meyillilik mövcuddur. Dövlət belə olan təqdirdə məhsulun qiymətinə təsir edə, tələb olunan bazarlara kənd təsərrüfatı məhsullarının istehsalçılarını yönləndirə bilər;
4) torpaq və su ehtiyatlarının aşınma proseslərinin sürətlənməsi, kənd təsərrüfatı və ərzaq məhsullarında böhran və depressiya halları və s. aqrar sahə üçün əlavə çətinliklər yaradır [2, s. 5]. Kənd təsərrüfatında risklərin və gəlirliliyin münasib nisbətinə nail olunması problemi kənd təsərrüfatı məhsulları istehsalçılarının həvəsləndirilməsi üzrə dövlət proqramlarının reallaşdırılması zamanı aradan qaldırıla bilər;
5) inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının kənd təsərrüfatı sektoru üçün xüsusiyyətlərindən bəhrələnərək göstərmək olar ki, tələb və təklif bazar amillərinin təsiri, kənd təsərrüfatı istehsalçılarına dəstək üzrə dövlət siyasətinin həyata keçirilməsi xüsusi hal kimi vurğulanmalıdır. Dövlət bu zaman tənzimləyici xarakter daşıyaraq aqrar məhsul istehsalçılarının bazarın tələb etdiyi həcmdə istehsalı həyata keçirməyə köməklik edə bilər;
6) kənd təsərrüfatı bazarları artan qloballaşmanı əks etdirir və buna görə də, dünya qiymətlərinin dəyişməsindən və digər ölkələrdə subsidiyalaşmanın səviyyəsindən çox asılıdır. Dövlət daxili istehsalçılarına müdafiə məqsədli yardımlar etməklə həmin subyektləri bazarda saxlamağa çalışır.

## Metodologiya

Tədqiqat meyarı olaraq maliyyə sahəsi seçilmişdir. Nəzərə alınmalı olan amillər sırasında 2005-2018-ci illər üzrə Ümumi Daxili Məhsulun həcmi, kənd təsərrüfatına kredit qoyuluşlarının həcmi yer almışdır. İstifadə edilən məlumatlar dövlət orqanlarının rəsmi elektron ünvanlarından və elmi nəşrlərdən əldə edilmişdir. Ümumi Daxili Məhsulun həçmində kənd təsərrüfatının payı təsviri statistika formasında verilmiş və qarşılaşdırma üsulu çərçivəsində ÜDM ilə kənd təsərrüfatının istehsal dəyəri arasındakı korrelyasiya təhlili edilmişdir.

## Təhlil

Aqrar sahə iqtisadiyyatın ən vacib hissələrindən biri olmaqla dövlətin sosial-iqtisadi inkişafını, ərzaq təhlükəsizliyini səciyyələndirən katalizator rolunu oynayır. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarından əldə edilmiş gəlirin ÜDM-dəki payını aşağıdakı şəkildə nəzərdən keçirək.




**Şəkil 1.** Ümumi Daxili Məhsulun həcmində kənd təsərrüfatının payı (milyon manatla)

*Mənbə: https://www.stat.gov.az/source/system_nat_accounts/.*

Yuxarıdakı şəkildən göründüyü kimi kənd təsərrüfatı məhsullarının istehsalından əldə edilən gəlir həcminin ÜDM-də payı üzrə 2005-2018-ci illər ərzində kifayət qədər artım müşahidə edilməsə də, dinamik inkişaf son 10 ildə özünü doğrultmuşdur. Müqayisə olunan dövrlər arasında yalnız 2005-ci ildə kənd təsərrüfatının ÜDM-dəki payı maksimum həddə olmuş, yəni 9,1 faiz təşkil etmişdir. Bu pay nisbəti 2011 və 2012-ci

illərdə ən aşağı göstəriciyə düşmüşdür. ÜDM-də dinamik inkişaf 2009 və 2015-ci illərdə davamlılığını itirsə də, kənd təsərrüfatı məhsullarının istehsalında geriləmə izlənilməmişdir. 2005-ci illə müqayisədə 2018-ci ildə kənd təsərrüfatı məhsullarından əldə edilmiş gəlir 2,2 dəfə artmışdır.
Azərbaycan Respublikası ilə Türkiyə Respublikasının ÜDM payında kənd təsərrüfatının payını aşağıdakı qrafikdə təsvir edək:




**Qrafik 1.** 2005-2018-ci illərdə ÜDM üzrə kənd təsərrüfatında yaradılmış dəyərin payı

*Mənbə: Türkiye Cumhuriyeti Cumhurbaşkanlığı Strateji Ve Bütçe Başkanlığının saytı (2020) www.sbb.gov.tr/ekonomik-ve-sosyal-gostergeler/#1540021349004-1497d2c6-7edf, və Azərbaycan Dövlət Statistika Komitəsinin saytı (2019) (www.stat.gov.az/source/system_nat_accounts).*

Müqayisə üçün bildirmək olar ki, hər iki ölkə üzrə bu göstəricilərin trendi müşahidə edilmir və Azərbaycan Respublikasından fərqli olaraq kənd təsərrüfatı sahəsində hasil olunmuş ÜDM payı Türkiyə Respublikasında daha yüksəkdir. Bu üstünlüyü müvafiq sahələrdə pay göstəricilərinin ümumi orta xəttindən müşahidə etmək olar. Belə olan halda, qeyd etmək olar ki, Türkiyə Respublikasında kənd təsərrüfatı sahəsi ölkəmizə nisbətən daha yüksək inkişaf etmişdir. Yaranmış vəziyyətin səbəblərindən biri kimi bu sahəyə yönəlmiş maliyyə investisiyalarının böyük olmasını ehtimal etmək olar.
Azərbaycan Respublikasında ÜDM-nin həcmi ilə kənd təsərrüfatının payı arasında asılılığı müəyyən etmək üçün Excel redaktorunda hesablayaraq aşağıdakı cədvəldə korrelyasiya əlaqəsini göstərmək olar:

**Cədvəl 1**. ÜDM ilə kənd təsərrüfatının istehsal dəyəri arasındakı korrelyasiya təhlili

| KORRELYASİYA | | |
|---|---|---|
| | ÜDM | Kənd təsərrüfatının istehsal həcminin dəyəri |
| ÜDM | 1 | 0,984181776 |
| Kənd təsərrüfatının istehsal həcminin dəyəri | 0,984181776 | 1 |

Cədvəl 1-dən göründüyü kimi korrelyasiya əmsalı 1-ə daha çox yaxındır. Bu göstərici ÜDM ilə kənd təsərrüfatının istehsal dəyəri arasında sıx əlaqənin olmasını göstərir. Başqa formada desək, kənd təsərrüfatının istehsal dəyərində artım ÜDM-ə təsiri düz mütənasibdir.

Hazırda kənd təsərrüfatı sahəsi üzrə istehsalın stimullaşdırılması prosesində tələb və təklifin tarazlığında yaranan disbalans, xarici məhsulların qiymətlərinin səviyyəsi bəzən ölkədaxili istehsalçıların əmtəələrinin qiymətlərinə təsir göstərdiyindən özlərinin iqtisadi maraqlarından asılı olmayaraq, onları qiymətləri bazarın tələbi səviyyəsində müəyyən etməyə məcbur edir [3, s. 184]. Xarici məhsulun ölkəyə idxalının ucuz başa gəlmə səbəbi yerli kənd təsərrüfatı məhsulları istehsalçıları üçün maraqlıdır. Xarici məhsulun ucuz başa gəlməsi yalnız texnoloji tətbiqlərlə mümkündür. Yerli istehsalçıların bu cür texnoloji avadanlıqlardan istifadə etmələri maddi imkansızlıqdan mümkün olmadığından onlar yerli bazarlarda qiymət amili baxımından zərərlə qarşılaşırlar. Bu zaman meydana çıxan çatışmazlığın aradan qaldırılmasında dövlətin bu sahəyə yönəltmiş olduğu siyasət dəstək ola bilər. Aqrar sahə məhsulları həcminin artırılmasında kənd təsərrüfatının dinamik inkişafının əsas amillərindən biri də kredit resurslarının əlçatanlığının təmin olunmasıdır. 2005 - 2018-ci illər ərzində təhlil edilən sahəyə yönəlmiş kreditlərin ümumi həcmini aşağıdakı şəkildə göstərmək olar.




**Şəkil 2.** 2005 - 2018-ci illər üzrə kredit qoyuluşlarının kənd təsərrüfatına ayırmaları
Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankının saytı (2019)
(https://www.cbar.az/page-42/monetary-indicators).

Yuxarıdakı şəkildən kredit qoyuluşlarının həcmində maksimum göstərici 2015-ci ildə əldə edildiyi görünür. Həmin ildə kənd təsərrüfatının istehsal dəyərinin həcmi 2014-cü ilə nisbətən geriləmişdir. 2016-cı ilə nisbətən son 2 ildə maliyyələşməyə ayrılmış vəsaitlərin azalmasına baxmayaraq ÜDM və kənd təsərrüfatı məhsullarının istehsal dəyəri ilə müqayisədə vizual olaraq müşahidə etmək olar ki, bu vəsaitlərin istehsala o qədər də təsiri olmamışdır. Onu da qeyd etmək olar ki, 2015-ci ildə kredit qoyuluşlarının həcmi 2016-cı ilin məhsuldarlığına müsbət təsir etmişdir.

Kənd təsərrüfatı krediti aqrar sektorda müasir texnologiyaların mənimsənilməsində və istehsal sisteminin təkmilləşdirilməsində və nəticədə kənd ərazilərinin iqtisadi inkişafında mühüm rol oynayır. Bu maliyyələşmədən istifadə edərkən daha çox texniki və əməliyyat informasiya-kommunikasiya texnologiyalarına ayırmalarda nəzərə alınmalıdır. Ümumiyyətlə, bu növ kreditin istifadəsi vaxt keçdikcə müxtəlif ölkələrdə sosial-iqtisadi münasibətlərin yaxşılaşmasına nəticə etibarilə təsir edir [4: s.123].

Ölkəmizdə 2005 - 2018-ci illər ərzində kənd təsərrüfatının istehsal dəyəri ilə bu sahəyə ayrılmış kreditlər arasında əlaqəni öyrənmək üçün aşağıdakı cədvəldə korrelyasiya təhlilini belə göstərmək olar:

**Cədvəl 2. Kənd təsərrüfatının istehsal dəyəri ilə bu sahəyə ayrılmış kreditlər arasındakı əlaqə**

| KORRELYASİYA | Kənd təsərrüfatı sahəsində istehsal olunan məhsulun dəyəri | Kənd təsərrüfatı sahəsinə ayrılmış kreditlərin həcmi |
|---|---|---|
| Kənd təsərrüfatı sahəsində istehsal olunan məhsulun dəyəri | 1 | 0,32699503 |
| Kənd təsərrüfatı sahəsinə ayrılmış kreditlərin həcmi | 0,32699503 | 1 |

Cədvəl 2-dən göründüyü kimi korrelyasiya əmsalının 0-a daha yaxın olması göstəricilər arasındakı əlaqənin aşağı olduğunu bildirir, yəni kreditləşmənin məhsuldarlığın artmasına təsiri aşağı səviyyədədir. Bu səbəbdən kreditləşmə şərtləri və infrastruktur imkanlarının kənd təsərrüfatı subyektləri üçün uyğun olmaması qənaətinə gəlmək olar.

Ölkəmizdə dövlət dəstəyi ilə kənd təsərrüfatı iqtisadiyyatının inkişaf etdirilməsi üçün məqsədli proqramlar hazırlanmışdır. Buna səbəb olaraq əhalinin şəhərlərə axını nəticəsində bu sahədə yaranan ixtisaslı kadr çatışmazlığı; müasir texnika və avadanlıqların kifayət qədər olmaması, mövcud əsas inventarların yüksək dərəcədə köhnəlməsi ilə ifadə olunan sektorun modernləşməsinin aşağı dərəcəsi; ümumilikdə kənd təsərrüfatının inkişafına təsir edən bazar infrastrukturunun aşağı inkişafı; nəzarətsiz təbii amillərin təsiri kimi xüsusi risklərin olması ilə əlaqəli maliyyələşmənin qeyri-sabitliyini göstərmək olar. Qeyd edilən bu amillər aqrar sahənin effektiv işləmə qabiliyyətinə mənfi təsir göstərir.

Hazırda Azərbaycan Respublikasında kənd təsərrüfatı sektoruna dövlət tərəfindən rəsmi dəstək verilir. Dövlət dəstəyi vergi güzəştləri, əlavə olaraq maddi yardım və kənd təsərrüfatı texnikalarının alınması üçün stimullar (gömrük güzəştləri və lizinq) formasında təqdim edilir. Vergi güzəştləri ilə yanaşı, dövlət kənd təsərrüfatı istehsalçılarına yanacaq, maşın yağları və mineral gübrələrin verilməsi, o cümlədən toxum yetişdirilməsinə subsidiyalar formasında aqrar sahəyə stimul verir [5, s. 12]. Mövcud şəraitdə iqtisadiyyatın kənd təsərrüfatı sektorunun kredit sisteminin əsas inkişaf istiqamətləri aşağıdakılardır:

Birincisi, kənd təsərrüfatı istehsalçılarının təbii hadisələr səbəbindən məhsulun ərsəyə gəlmədiyi hallarda yaranmış borclarının müəyyən hissəsinin güzəşt edilməsi və silinməsi yolu ilə restrukturizasiyası.

İkincisi, kənd təsərrüfatı istehsalçılarının bank investisiya kreditləşməsinin genişləndirilməsi məqsədi ilə kreditləşmənin zəmanətliyinin təmin edilməsi. Bununla əlaqədar 2016-cı ildə qəbul edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin 3.1.2.-ci tədbirində Kredit zəmanət fondunun yaradılması qarşıya qoyulmuş hədəflərdəndir [6, s. 83]. Kredit zəmanətliliyi həmçinin maliyyə (investisiya) resurslarının əlçatanlığını təmin etməyə imkan verəcəkdir. Xüsusi olaraq bu sahəyə ayrılan kreditləşmənin zəmanətliyinin dövlət tərəfindən yerinə yetirilməsi müsbət cəhətdir. Kreditləşmənin zəmanətliyi təmin olunan zaman istehsalçının təsərrüfatı öyrənilərək müəyyən təhlillər edilir. Zəmanətin möhkəmlənməsi məqsədilə dövlət kreditlər üzrə təminatlar verməklə kommersiya banklarının verdiyi kreditlərin həcmindən müəyyən payda xüsusi fondda pul vəsaitlərini ehtiyatda saxlaya bilər. Kənd təsərrüfatı istehsalçısının ödəmə qabiliyyəti olmadıqda, bu zaman dövlət itkilərin bir hissəsini banka kompensasiya edə bilər. Zəmanət fondları kreditlərin geri qaytarılması üzrə təminatlar verməklə sığortaçılar qismində çıxış edə bilər.

Üçüncüsü, kənd təsərrüfatı təyinatlı torpaqların əsas zəmini və kənd təsərrüfatında istehsalın əsasını təşkil etməsi ilə şərtlənən kreditləşmənin inkişafı kredit üzrə təminat kimi çıxış edə bilər. Torpaqların girov mexanizminin səmərəli fəaliyyəti kənd təsərrüfatına uzunmüddətli investisiyaların cəlb edilməsinə və kənd təsərrüfatı istehsalçılarının iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına imkan yaradır.

Dördüncüsü, kənd təsərrüfatı kredit əməkdaşlığı imkanlarının genişləndirilməsi. Kənd yerlərində maliyyə bazarının inkişafının ən vacib üsullarından biri kreditləşmənin təşkilidir. Bu, kredit təşkilatları üçün kənd təsərrüfatı subyektlərinin geniş təbəqələrinə uyğun şərtlərlə zəruri maliyyə xidmətlərinin göstərilməsində yeganə imkandır. Fikrimizcə, uzunmüddətli perspektivdə kənd təsərrüfatı kredit əməkdaşlığının mövcud potensialını artıraraq, ölkənin maliyyə bazarlarında rəqabətin inkişafına öz töhfəsini

verəcəkdir. Kənd təsərrüfatında kredit əməkdaşlığının inkişaf etdirilməsinin məqsədəuyğunluğu həm də bu kredit münasibətləri sistemi istehsalçıların gəlirlərini artıraraq özünü səmərəli şəkildə göstərməsinə, hər bir kənd təsərrüfatı subyektinə vaxtaşırı innovativ fəaliyyətin həyata keçirməsinə imkan verməsidir.
Sonda qeyd etmək olar ki, kənd təsərrüfatında kredit sistemi büdcə maliyyəsi ilə birlikdə ölkənin ərzaq təhlükəsizliyi və ərzaq müstəqilliyi probleminin həllində ciddi rol oynaya bilər.

## Nəticə

Aqrar sahəyə dövlət maliyyələşdirməsinin səmərəlilik səviyyəsi dövlətin bölgələrdə kənd təsərrüfatının inkişafına yatırdığı vəsaitlərin geri qaytarılması ilə ölçülə bilər. Zənnimizcə, maliyyələşdirmə həcmini təyin edərkən və regional prioritetləri müəyyənləşdirərkən infrastruktur imkanlarını nəzərə almaq lazımdır. Dövlət maliyyələşdirməsinin yüksək səviyyəsi hazırda kənd təsərrüfatında məhsuldarlığın aşağı səviyyədə olduğu bölgələrdə müşahidə olunur. Belə vəziyyət başadüşüləndir. Buna səbəb kimi bölgələrdə kənd təsərrüfatının kifayət qədər maliyyələşməməsi və sərmayə qoyuluşu həyata keçirilən zaman istehsal həcminin artması şəklində yüksək gəlir əldə edilməməsidir. Yüksək dövlət dəstəyi olan bölgələrdə kənd təsərrüfatının maliyyə mənbələri ilə doyması daha çoxdur və onlarda gəlir aşağı olur. Buna görə kənd təsərrüfatını dəstəkləmək üçün dövlət büdcəsindən ayırmaların miqdarı müəyyən edilən bölgələrdə kənd təsərrüfatının dövlət maliyyələşdirməsinin mövcud siyasətində nəzərə almaq məqsədəuyğundur. Bu istiqamətdə mərkəzləşdirilmiş dövlət fondlarının çevik şəkildə bölüşdürülməsinə və ilk növbədə dövlət maliyyələşdirməsinin yüksək səviyyədə olduğu bölgələrdə yenidən işlənməsinə diqqət edilməsi tövsiyə olunur. Bu, birincisi, regionnal aqrobiznesin daha balanslı inkişafını təmin etməyə, ikincisi, ölkə iqtisadiyyatının kənd təsərrüfatı sektorunun inkişafı üçün ayrılmış məhdud maliyyə mənbələrindən istifadənin səmərəliliyini artırmağa imkan verəcəkdir.

### Ədəbiyyat

1. İbrahimov İ.H. (2016) Aqrar sahənin iqtisadiyyatı. (Monoqrafiya). Bakı, 665 səh.;
2. Hüseynov M.C., Əmrahov V.T., Qasımov A.M., Həsənov A.F. və Nərimanov N.A., (2016) Aqrar istehsal strukturunun diversifikasiyası; (Gəncə-Qazax iqtisadi rayonunun misalında). – Bakı: Elmin İnkişafı Fondu, 168 səh.;
3. Xalıqova N.A. (2019) Kənd təsərrüfatı məhsullarının istehsal-satış fəaliyyətinə təsir göstərən amillər və bu fəaliyyətin genişləndirilməsi strategiyası. «Elmi Əsərlər» jurnalı - №1- 2019. S.182-188;
4. E. Gunes, H. Movassaghi, (2017) “Comparative Analysis of Agricultural Credit System and Organization in Selected Countries”, International Journal of Applied Agricultural Sciences. Vol. 3, No. 5, 2017, pp. 123-135. doi: 10.11648/j.ijaas. 20170305.14;
5. Сулейманов Э.,2016, “Азербайджан”. Обзор агропродовольственной торговой политики в постсоветских странах. 2014-15, Журнал. ФАО, 2016;

6. Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. (2016) Bakı. 177 səh.;
7. http://www.stat.gov.az/"stat.gov.az;
8. www.cbar.az;
9. www.sbb.gov.tr.

# ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ВЛИЯНИЯ ВАЛЮТНЫХ КУРСОВ НА ЭКОНОМИЧЕСКИЙ РОСТ

***А. Э. Рагимова***[1]
[1]*докторант, Западный Университет*

*Получено: 29 января 2020 года*
*Принято:23 апреля 2020 года*

**Резюме**
Основная цель исследования заключается в выявлении и объяснении противоречивых влияний валютных курсов на экономический рост. Исследовательская работа выполнена на основе таких методов, как научная абстракция, системный анализ, логическое обобщение. Результатом исследования является выявление эффектов валютных курсов на экономику. Практическое значение исследования заключается в том, что результаты исследования представляют особый интерес с точки зрения государственного регулирования валютных курсов. Научная новизна и оригинальность исследования в том, что на основе анализа публикаций в этом направлении исследуется опыт некоторых стран и дается объяснение противоречивым эффектам валютных курсов на экономический рост.

***Ключевые слова:*** *реальный обменный курс, экономический рост, государственное регулирование, внешний эффект, ценовая конкурентоспособность.*
***Jel Classification codes:*** *B27, E44, F31, F43, O47.*

# VALYUTA MƏZƏNNƏLƏRİNİN İQTİSADİ ARTIMA TƏSİRİNİN NƏZƏRİ ASPEKTLƏRİ

***A.E.Rəhimova***[1]
[1]*doktorant, Qərb Universiteti*

*Daxil olmuşdur: 29 yanvar 2020*
*Qəbul edilmişdir: 23 aprel 2020*

**Xülasə**
Tədqiqatın əsas məqsədi valyuta məzənnələrinin iqtisadi artıma ziddiyyətli təsirinin aşkarlanmasıdır. Tədqiqat işi elmi abstraksiya, sistemli təhlil və məntiqi ümumiləşdirmə kimi tədqiqat üsulları əsasında yerinə yetirilmişdir. Tədqiqatın nəticəsi valyuta məzənnələrinin iqtisadiyyata təsirinin aşkarlanmasından ibarətdir. Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, tədqiqatın nəticələri valyuta məzənnələrinin dövlət tənzimlənməsi baxımından xüsusi maraq kəsb edir. Tədqiqatın orijinallığı bu istiqamətdə

nəşrlərin təhlili əsasında bəzi ölkələrin təcrübəsinin öyrənilməsi və valyuta məzənnələrinin iqtisadi artıma ziddiyyətli təsirinin olmasının izahının verilməsindədir.

***Açar sözlər:*** *real valyuta məzənnəsi, iqtisadi artım, dövlət tənzimlənməsi, xarici təsirlər, qiymət rəqabəti.*

# THE ROLE OF EXCHANGE RATES IN ECONOMIC GROWTH

***A. E. Rahimova***[1]
[1]*doctoral student, Western University*

*Received: 29 January 2020*
*Accepted: 23 April 2020*

**Summary**
The main purpose of the study is to identify and explain the contradictory effects of exchange rates on economic growth. The research work is based on such methods as scientific abstraction, system analysis, and logical generalization. The result of the study is to identify the effects of exchange rates on the economy. Practical significance of the study: The results of the study are of interest from the point of view of state regulation of exchange rates. Scientific novelty and originality of the research: based on the analysis of publications in this direction, the experience of some countries is studied and an explanation is given for the contradictory effects of exchange rates on economic growth.

***Keywords:*** *real exchange rate, economic growth, government regulation, external effect, price competitiveness.*

## Введение

Традиционно, реальный обменный курс не был в центре исследований экономического роста. Первые исследователи экономического роста фокусировались в основном на таких факторах макроэкономического роста, как сбережения и инвестиции. К тому же, в основном это были моделями закрытой экономики, в которых не учитывались обменные курсы. Последующие исследователи, в основном неоклассической школы, включили в модели роста другие важные детерминанты, такие как права собственности (например, патент и защита авторских прав), интенсивность конкуренции (например, присутствие или отсутствие барьеров входа в рынок), характер и масштабы образования и обучения как факторы, формирующие стимул и способности обновить или имитировать инновации. Но даже в этих исследованиях реальному обменному курсу не уделялось должного внимания.

**Рыночные механизмы в формировании обменных курсов**

Среди экономистов доминируют два мнения по поводу роли регулирования валютных курсов в обеспечении экономического роста.

*Содействие стабильности.* Сторонники первого направления считают, что рынки лучше правительства знают, как двигаться к равновесию и к росту, и что роль государства должна быть ограничена содействием среде стабильности, включая стабильность обменного курса. Власти должны выявить приоритеты стабильной денежно-кредитной и фискальной политики. Они должны вмешиваться в валютный рынок по мере необходимости, чтобы предотвратить шероховатости, т. е. чрезмерную изменчивость по номиналу и, следовательно, по реальному обменному курсу, но они не должны пытаться влиять на его уровень. Данное предположение о том, что роль политики должна состоять лишь в создании среды стабильности, восходит к популярной интерпретации двух видов эпизодов. Во-первых, замедление глобального роста, который сопровождался крахом стабильности обменного курса в 1930-х, а затем в 1970-х гг. Во-вторых, высокий уровень изменчивости обменного курса типично сопровождающий крах роста конкретной страны, когда рост значительно замедляется и в конечном счете становится отрицательным [1]. Проблема состоит в том, что есть другие вероятные мнения на объяснение замедления производительности 1970-х и краха Бреттон-Вудской системы, которые не подразумевают причинной связи между первыми двумя факторами. В некоторых случаях причинная связь полностью перевернута: даже если и выявляется связь между крахом роста и изменчивостью обменного курса, она может отразить причинную связь, направленную от первого явления к последнему.

На самом деле доказательства связи от изменчивости обменного курса до роста менее, чем категоричные, в связи с чем дискуссии по этому поводу не кончаются. Например, в то время как в [2] на основе анализа 136 стран за период 1960 – 1989 гг. не выявлена связь между наблюдаемой изменчивостью обменного курса и экономическим ростом, в более позднем исследовании [3] сделано совершенно противоположное заключение о непосредственной связи между степенью гибкости обменного курса и экономическим ростом. То, что эта связь не отрицательна, а положительна заставляет подозревать, что тут главенствующим являются другие факторы, коррелирующие как с гибкостью обменного курса, так и с ростом, такие как политическая стабильность, институциональное развитие и совершенство финансового рынка. Такие результаты установлены некоторыми исследователями. Другой тип проблемы подобного рода исследований заключается в том, что их большая часть фокусируется не в реальном обменном курсе, а в номинальном. В [4] с помощью эконометрических методов

на примере 95 развивающихся стран, охватывающих период 1976 – 1985 гг. действительно выявлена отрицательная связь между изменчивостью реального обменного курса и ростом. Используя различные меры и примеры стран в [1] и [5] получены аналогичные результаты. В [6], фокусируясь на росте занятости, центральноевропейской и восточноевропейской переходной экономики выявлено то же самое. Правда, в известной работе исследователей Гарвардского университета подобные результаты ставятся под сомнение. Эти авторы считают, что поведение реального обменного курса находится во власти аномального поведения некоторых факторов [7].

Два других исследований, изучая связь между изменчивостью реального обменного курса и ростом в выборке различных развивающихся стран выявили слабые доказательства подобных связей (например, [8] или [9]). Потенциальные объяснения включают выборки различных стран, различные периоды, различные средства управления, различные способы измерения реального обменного курса и различные степени смещения одновременности (simultaneity bias) и опущенных переменных.

В [10] исследовано воздействие изменчивости реального обменного курса не на накопление факторов производства, а на их производительность. В этой работе выявлено, что более изменчивый обменный курс отрицательно связан с ростом производительности в экономических системах, где финансовые рынки слабо развиты, но не в странах с глубокими финансовыми рынками. Вывод заключается в том, что финансовое развитие обеспечивает инструменты хеджирования и дает возможности фирмам принимать меры против валютного риска. Этот результат согласуется с интуитивным ощущением, что в слабо развитых экономиках фирмы и домашние хозяйства лишены надежных и эффективных инструментов управления валютными рисками. Вместе с тем следует учитывать, что любое влияние изменчивости реального обменного курса на инвестиции и рост, вероятно, будет зависеть от конкретных обстоятельств. Например, в [11] делается вывод о том, что воздействие режима обменного курса (который иногда используется в качестве заместителя изменчивости реального обменного курса) зависит от внутренних и внешних обстоятельств.

## Государственное вмешательство

Описанный здесь подход в некотором смысле является альтернативным и заключается в том, что не просто стабильность реального обменного курса, но его средний уровень имеет существенное значение для экономического роста. Если обменный курс значительно переоценен, то правильный подход к содействию росту и развитию заключается в его изменении. Это может быть достигнуто

номинальным обесцениванием и, в идеальном случае, совмещением с политикой сдерживания заработной платы (с тем, чтобы препятствовать реальным инфляционным эффектам) и соответствующим регулированием индикаторов денежно-кредитной и фискальной политики, как это описано выше.

По общему признанию этот простой набор мероприятий поднимает множество вопросов и такое же множество ответов.

*Первый вопрос* касается термина "конкурентоспособный реальный обменный курс": конкурентоспособный, относительно чего? Самый простой ответ: конкурентоспособный относительно фактического обменного курса, поддерживаемого различными экономическими системами, имеющими низкий экономический рост.

*Второй вопрос*: если конкурентоспособный реальный обменный курс помогает способствовать росту и развитию, то, почему это автоматически не обеспечивается рыночными силами и политическим выбором? Один ответ на этот вопрос дает теория коллективного принятия решения Олсона [12]. Согласно этой теории, в то время как часть численности фирм, выигрывающих от конкурентоспособно оцененного реального обменного курса, увеличивается, растет численность и других компаний, несущих затраты (в основном импортеры). При определенной концентрации численность подобных компаний, заинтересованных в повышении курса национальной валюты растет, они могут объединиться и представлять влиятельную силу. В таком случае естественно появляется стимул участвовать в корыстном лоббировании переоценки валюты. Таким же образом может объединиться и другая сторона (экспортеры). В зависимости от того, какая из сторон окажется сильнее и может быть принято соответствующее решение.

*Третий вопрос*: каков точный механизм, через который конкурентоспособный реальный обменный курс способствует росту? Предотвращение реальной переоценки может просто поощрить оптимально уравновешенный рост секторов, производящих торгуемые и неторгуемые товары. С другой стороны, могут быть немонетарные внешние эффекты, связанные с производством экспортоориентированных товаров (например, эффекты обучения на практике являются внешними по отношению к фирме), которые могут повлиять на формирование реального обменного курса.

Как отмечено выше, имеется множество исследований, связывающих уровень реального обменного курса с выпуском и ростом занятости. В [13] на примере 9 латиноамериканских стран показывается, что переоценка реального курса замедляет рост промышленной занятости. Аналогичный результат получен в [14] при исследовании 18 стран в Латинской Америке и Карибском бассейне для более раннего периода. В [15] исследуются эпизоды, когда рост ускоряется по крайней мере на два процентных пункта, и это ускорение длится в течение по

крайней мере восьми лет. Рассматривая 80 эпизодов, авторы установили, что обесценивание реального курса находится среди факторов, которые значительно связаны с уровнем роста. Похожее заключение выводится и в [10], где выявлено, что страны, страдающие от реальной переоценки, испытывают более медленный рост производительности. Величина этого эффекта сокращается в странах с более развитой финансовой системой, что согласуется с вышеописанными выводами других исследований.

В описанных исследованиях реальный обменный курс рассматривается в качестве экзогенного фактора. На практике не ясно, как сократить смещение одновременности, проявляющиеся в подобных задачах.

Заметим, что при выявлении смещения одновременности необходимо быть внимательным, так как наличие или отсутствие этого явления зависит от конкретной ситуации. Например, часто наблюдается укрепление валют (и, следовательно, их реального курса) быстро растущих экономик, и это явление, находящееся в противоречии с вышеизложенными выводами может быть объяснено следующими факторами.

С одной стороны, именно в этих странах благодаря высокому уровню научного и технологического развития создаются совершенно новые товары и услуги (продуктовая инновация), которая пользуется широким спросом, как внутри страны, так и за рубежом. В результате этого повышенного спроса, с одной стороны, растет спрос и на валюту этих стран, что приводит к повышению курса этих валют. С другой стороны, одновременно растет экспорт этих стран, что обуславливает их экономический рост. То есть налицо одновременное повышение курса валюты и ВВП страны.

С другой стороны, в развитых странах как результат инноваций и более высокого уровня образования и профессиональности рабочей силы происходит быстрый рост производительности факторов производства, что приводит к сокращению себестоимости их продукции, т. е. к повышению их ценовой конкурентоспособности на мировых рынках. Результатом этого является повышение иностранного спроса на продукцию этих стран, которая и без того пользовалась высоким спросом.

В таких условиях отпадает актуальность использования макроэкономической политики поддержания конкурентоспособности экспортеров через обесценения национальной валюты.

С другой стороны, если превалирует мнение, что успех политики низких курсов подпитывает нежелание оставить ее, тогда быстрый экономический рост будет стимулировать поддержание конкурентоспособного реального обменного курса (как в случае с Китаем), что означает, что регрессионные модели, «объясняющие»

рост с точки зрения реального обменного курса, будут иметь также обратную причинно-следственную обусловленность. Иными словами, будет иметь место смещение одновременности. Соответствующее обращение будет и с инструментальными переменными, т. е. применение инструмента, который коррелируется с реальным обменным курсом, также не поможет объяснить экономический рост. Другими словами, необходимо помнить пресловутый тезис, что «корреляция – это не всегда причинно-следственная связь» (causation vs. correlation).

**Изменение валютного курса и внешние эффекты**

Таким образом, мы подошли ко второму вопросу, а именно: почему некоторые страны имеют тенденцию поддерживать более конкурентоспособные реальные обменные курсы, чем другие? Очевидными кандидатами здесь являются политические переменные: например, в то время как литература по экономическому росту нерешительна и неоднозначна в ответе на вопрос, какое общество растет экономически быстрее, демократическое или диктаторское, растущая масса доказательств предлагает, что такие переменные, как демократия важны для определения реального обменного курса.

К сожалению, большинство исследований, отраженных в научной литературе не выявляет механизм, через который реальный обменный курс влияет на экономический рост. Большинство из них делает ставку на подтверждение наличия корреляции между реальным обменным курсом и экономическим ростом, а не на идентификацию каналов этого влияния. Здесь имеются две различные, но совместимые интерпретации.

- Во-первых, *искажения на политическом рынке*. Оно порождает непропорциональное влияние сплоченных групп с различными интересами, что может позволить им повлиять на политику способами, которые формируют реальный обменный курс, который может быть вредным для страны в целом. Если не вмешиваться в валютный рынок, то рынок, по-видимому, произведет реальный обменный курс, который поощряет переток ресурсов в секторы торгуемых и неторгуемых товаров до такой степени, когда их маржинальная прибыль окажется уравненной, и их вклад максимизирует экономический рост.
- В противовес этому, в случае политического давления, приводящего к *сильному фаворитизму* для одного сектора (как правило, сектор, производящий неторгуемые товары), может заставить реальный обменный курс становиться разориентированным (в основном переоцененным), в результате чего маржинальная доходность капитала и производительность труда в этом секторе будет иметь тенденцию к резкому уменьшению, что приведет к сокращению экономического роста. Это, в свою очередь, подстегнет политические реформы, или по

крайней мере стремления правительства устранить политические препятствия с целью установления реального обменного курса, способствующего стабилизации экономического роста.

